AZƏRBAYCAN RESPUBLİKASININ
MƏDƏNİYYƏT NAZİRLİYİ

M. F. AXUNDOV adına
AZƏRBAYCAN MİLLİ KİTABXANASI



ƏLAMƏTDAR VƏ TARİXİ GÜNLƏR TƏQVİMİ 2005-ci il

BAKI - 2004

2004
951

AZƏRBAYCAN RESPUBLİKASININ
MƏDƏNİYYƏT NAZİRLİYİ

925
Ə42

M.F.AXUNDOV adına
AZƏRBAYCAN MİLLİ KİTABXANASI

ƏLAMƏTDAR VƏ TARİXİ GÜNLƏR TƏQVİMİ
2005-ci il

(Metodik materiallar toplusu)

448447

BAKI - 2004

ARXİV

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

744726

231821, 22, 23

+ Ч73(2А).р

Baş redaktor: K. M. Tahirov

İxtisas redaktoru: L. Y. Qafurova

Redaktorlar: M. Vəliyeva
S. Cəfərova
S. İsayeva

Nəşriyyat redaktoru: Ş. Əhmədova

Kompüter dizaynı: D. Hacıyeva

«Əlamətdar və tarixi günlər təqvimi»nin 2005-ci il buraxılışı Milli Kitabxananın Elmi-metodik kitabxanaşünaslüq şöbəsinin və Diyarşünaslıq və Milli biblioqrafiya şöbəsinin əməkdaşları tərəfindən hazırlanmışdır.

«Əlamətdar və tarixi günlər təqvimi»: 2005- il. Metodik materiallar toplusu; baş redaktor: K.Tahirov. – Bakı, 2004.- 92 səh.

© M.F.Axundov ad. Milli Kitabxana, 2004

Baş redaktordan

Son vaxtlar M.F.Axundov adına Milli Kitabxananın respublikamızın bir çox şəhər və rayonlarında Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinə daxil olan kitabxanaların işçiləri üçün "Müasir kitabxanalar və onların vəzifələri" mövzusunda keçirdiyi treninq-seminarlarda kitabxanaçılar bir vaxtlar M.F.Axundov adına Kitabxananın nəşr etdirdiyi "Əlamətdar və tarixi günlər təqvimi"nin çapının bərpa olunmasına böyük ehtiyacın duyulduğunu xüsusilə qeyd etmişlər.

Yerlərdə kitabxanaların qarşısında duran vəzifələrin müəyyənləşdirilməsində, illik iş planlarının tərtibində və cari il ərzində həyata keçiriləcək kütləvi tədbirlərin vaxtlı-vaxtında və lazımi səviyyədə hazırlanıb keçirilməsində bu nəşrin onlara yaxından kömək etdiyini bildirərək onun buraxılışının bərpa olunmasını kitabxana rəhbərliyindən xahiş etmişlər.

Ehtiyacı və yerlərdən daxil olan müraciətləri nəzərə alaraq Milli Kitabxananın rəhbərliyi 70-80-ci illərdə dərc olunan "Əlamətdar və tarixi günlər təqvimi"nin nəşrini bərpa etməyi qərara almışdır və kitabxanaçıların müzakirəsinə təqdim olunan bu nəşr onun ilk buraxılışıdır.

Uzun illik fasilədən sonra işıq üzü görən bu vəsait ilk təcrübə olduğundan müəyyən səhvlərdən və qüsurlardan da xali deyildir. Bütün bunlara baxmayaraq həmin vəsaitin təkcə kitabxana işçiləri üçün deyil, eləcə də bütövlükdə mədəniyyət işçiləri-klub və mədəniyyət evlərinin, muzey və şəkil qalereyalarının işçiləri üçün gərəkli olacağını ümid edirik.

Vəsaitdə materiallar görkəmli şəxsləri yubileylərinin keçirilməsi baxımından tarixi-xronoloji ardıcıllıqla qruplaşdırılmışdır. Materialların həcmi nəzərə alınaraq ancaq tarixi şəxsiyyətlərin yubileyləri əhatə olunmuş, digər əlamətdar günlər barədə materiallar vəsaitə daxil

olunmamışdır. Lakin növbəti buraxılışda bütün əlamətdar və tarixi günlərin əhatə olunması nəzərdə tutulmuşdur.

Kitabxanaçıların və bütövlükdə mədəniyyət işçilərinin diqqətinə təqdim olunan bu vəsait barədə rəy və təkliflərini, iradlarını bizə göndərən mütəxəssislərə əvvəlcədən minnətdarlığımızı bildiririk. Bunun üçün poçt və elektron ünvanlarımızı bildiririk:

AZ-1000, Bakı şəh., Xəqani küçəsi 29,
Tel.: (99412) 493-40-03; 498-08-22.
Elektron poçtu: anl@aznet.orq

Kərim Tahirov
M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının direktor müavini

SƏMƏNDƏR RZAYEV - 62

Səməndər Rzayev 1942-ci il yanvar ayının 2-də Ağsu rayonunda anadan olmuşdur. Orta məktəbi həmin rayonda bitirmişdir. 1964-1968-ci illərdə Bakıda İncəsənət İnstitutunun aktyorluq fakultəsini oxuyub bitirmiş, təyinatını M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrına almış və orada çalışmışdır.

Professor Rza Təhmasibin tələbəsi olan Səməndər Rzayev teatra Ağıllı Haratsiya rolu ilə gəlmişdir. Şıxəli Qurbanovun «Sənsiz» pyesinin tamaşasında Tərlan rolu, Şirvanzadənin «Nakam qız» pyesinin tamaşasında yaratdığı Danil rolu Səməndəri zirvələrə qaldırdı, bütün teatr sevənlərə tanıtdı.

Səməndər Rzayevin yaratdığı obrazlar öz zənginliyi, təbiiliyi və eyni zamanda teatral olması ilə seçilirdi. Səməndər Rzayevin səhnədəki oyununun hər dəfə öz roetikası olurdu. Onun sənətində Azərbaycan teatrının ən yaxşı ənənələri – teatrallıq, roetiklik, əzəmət, bütövlük öz ifadələrini tapırdı.

Səhnədə həm faciəli, həm də komik rolları ilə məharət göstərən aktyor, ürəyə yatan səsi, aydın diksiyası ilə böyük sənətkar mədəniyyətindən xəbər verirdi. Aktyor bütöv bir teatr məktəbi, teatr örnəyi idi.

Aktyorun son zamanlar teatr səhnəsində yaratdığı Bəhram Zeynallı («Şəhərin yay günləri»), Müzəffər («Quşu uçan budaqlar»), Hatəmxan («Müsyö Jordan və Dərviş Məstəli şah»), cəllad («Karıxmış soltan») obrazlarında aktyorun sənətkarlıq məharəti aydın seçilir.

Azərbaycan SSR əməkdar artisti, respublika Dövlət Mükafatı Laureatı Səməndər Rzayev 1986-cı il aprelin 27-də vəfat etmişdir.

\+ + + + + + + +

Ədəbiyyat

1. Azərb. KP MK Azərb SSR Nazirlər Soveti Ədəbiyyat, incəsənət və arxitektura sahəsində 1980-cı il Dövlət mükafatları seçilməsi haqqında /S.M.Rzayev/ Azərb. KP MK-nın və Azərb. SSR Nazirlər Sovetinin qərarı.- // Ədəb və incəsənət. -1980.- 25 aprel.- s. 1.

2. Ağazadə A. Səhnəmizin Səməndərini anarkən... :(S.Rzayev haqqında) //Azərbaycan.- 2000.- 2 noyabr.- S. 6.
3. Əliyev A. Kral aktyor: (S.Rzayevin xatirəsilə) // Ədəb.və incəsənət.- 1990.- 5 okt.- S. 5.
4. Zeynalov E. Düzgün yoldasan dostum: (S.Rzayev haqqında) //Ədəbiyyat və incəsənət.- 1971.- 2 okt.- S. 14.
5. Yaqub Musa. «Qaldırmışlar ayağa Səməndəri» :/S.Rzayevin xatirəsinə şer/ //Ədəbiyyat və incəsənət.- 1988.- 12 fevr.- S.4.
Yusifli V. Səməndər Rzayev yaxud bir nəhəngin faciəsi. //Azadlıq.- 1997.- 13 may.- S. 7-8.

LEYLA BƏDİRBƏYLİ – 85

Azərbaycan Respublikasının xalq artisti, Dövlət mükafatı laureatı Leyla Ağalar qızı Bədirbəyli 1920-ci il yanvar ayının 8-də Bakı şəhərində anadan olmuşdur.

1937-42-ci illərdə Azərbaycan Dövlət Filarmoniyası Mahnı və rəqs ansamblının solisti olmuş, 1942-75-ci illərdə Azərbaycan Dram Teatrında fəaliyyət göstərmişdir.

Leyla Bədirbəylinin yaradıcılıq yolu geniş bir çayın sakit axınına bənzəyir. İlk baxışda sakit, səssiz axan bu çayın dərinliklərində gərgin bir həyat nəzərə çarpır.

Dövlət Mahnı və Rəqs ansamblında çalışdığı müddətdə o, incə və məlahətli rəqslərimizin mahir ifaçısı kimi nəzəri cəlb etmişdir. Onun Əlibaba Abdullayevlə birlikdə oynadığı «Naz eləmə» rəqsini təkcə Azərbaycan tamaşaçıları deyil, qonşu ölkələrin tamaşaçıları da dönə-dönə alqışlamışdılar.

Həmin illərdə Leyla Bədirbəylinin istedadı kino xadimlərinin nəzərini də cəlb etdi. O, ilk dəfə «Səbuhi» filmində çəkilməyə başladı. Məhz bu dövrdə Leylanın aktyorluq bacarığını yaxından görən bir sıra rejissorlar – Adil İsgəndərov, Rza Təhmasib, İsmayıl Dağıstanlı ona teatra getməyi məsləhət bildilər. Az keçmədən Leyla Bədirbəyli M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının kollektivinə daxil oldu.

Bir sənətkar kimi, Leyla Bədirbəyli öz işinə olduqca ciddi və tələbkar yanaşan, sənətdə saxtakarlığı sevməyən bir aktrisadır.

Leyla Bədirbəyli müxtəlif illərdə Əbdürrəhimbəy Haqverdiyevin «Pəri cadu» pyesində Pəri, Rəsul Rzanın «Qardaşlar»ında Ləman xanım, Ənvər Məmmədxanlının «Şərqin səhərin»də Dilarə, İlyas Əfəndiyevin «İşıqlı yolların»da Lalə, İslam Səfərlinin «Göz həkim»ində Nərminə və bir çox səhnə obrazları yaratmışdır.

+ + + +

Ədəbiyyat

1. Bədirbəyli Leyla. Ömrümün nağılları.- B.: Gənclik, 1998.-72s.

* * *

1. Babayev A. Leyla Bədirbəyli.- B.: Azərnəşr, 1970.- 82 s.
2.Leyla Bədirbəyli: (Səhnə fəaliyyətindən).- B.: İşıq, 1974.- 8 s.
3. Abbaslı R. Böyük aktrisanın yubileyi: (Leyla Bədirbəylinin 80 illik yubileyi münasibətilə) //Azərbaycan.- 2000.- 12 yanvar.- S.6.

ALEKSANDR SERGEYEVİÇ QRİBOYEDOV – 210

Qriboyedov Aleksandr Sergeyiviç 1795- ci il yanvarın 15- də Moskva şəhərində anadan olmuşdur. Rus yazıçısı 1810-cu ildə Moskva Universititetinin ədəbiyyat və hüquq fakültəsini bitirmiş, sonra fizika və riyaziyyat fakültəsində oxumuşdur. 1817-ci ildə Peterburqda xarici işlər kollegiyasinda qulluğa girmiş, 1818-ci ildən İranda, 1822-ci ildən isə Tiflisdə diplomatik işlərdə çalışmışdır. 1828-ci ildə Türkmənçay müqaviləsinin bağlanmasında iştirak etmişdir, sonra İrana səfir təyin olunmuşdur. İranda ingilis donnamatiyası agentlərinin təhriki ilə Tehranda fanatiklər tərəfindən vəhşicəsinə öldurulmuşdür. Tiflisdə dəfn edilmişdir. Rus ədəbiyyatı tarixində Qriboyedovun xidmətləri böyükdür. Onun «Ağıldan bəla» (1824) komediyası şöhrət qazanmışdır. Rus ədəbi dilinin inkişafında Qriboyedovun xidmətləri çoxdur.

O, 1829-cu il, fevralın 11-də Tehran şəhərində vəfat etmişdir.

\+ + + + + + + +

Ədəbiyyat

1. Qriboyedov A. Ağıldan bəla.- B.:Uşaqgəncnəşr, 1968.- 160 s.
2. Bağırov M.A. XIX əsr rus ədəbiyyatı.- B., 1965.-56 s.
3. Yenikolonov İ.K. Qriboyedovun həyatı.- B., 1946.

HƏZİ ASLANOV - 95

Xalqımızın igid oğlu, əfsanəvi sərkərdə Həzi Aslanov Böyük Vətən müharibəsinin şanlı salnaməsində misilsiz əsgəri rəşadəti, yüksək komandirlik məharəti, vətənə sonsuz sədaqəti ilə şərəfli yer tutur. Onun adı Azərbaycan xalqının Böyük Vətən müharibəsindəki iştirakı tarixinə qızıl hərflərlə yazılmışdır. Həzi Aslanov qısa, lakin mənalı ömür sürmüşdür.

Aslanov Həzi Əhəd oğlu 1910-cu il yanvar ayının 22-də Lənkəran şəhərində anadan olmuşdur. O, hələ gənc ikən hərbi işi son dərəcə sevirdi. Məhz bu səbəbdən yüksək vətənpərvərlik və döyüşçülük rühu olan Həzi Aslanov Lənkəran şəhərindən Bakıya oxumağa gəlmiş. 1924-30-cu illərdə Bakı və Leninqrad hərbi məktəblərində oxumuşdur.

Həzi Aslanov birinci ordeni Moskva uğrundakı döyuşlərdə almışdır. Böyük Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən kapitan Həzi Aslanov Moskva ətrafındakı vuruşmalarda göstərdiyi hərbi təşkilatçılıq bacarığına və şəxsi igidliyinə görə 1941-ci ildə podpolkovnik rütbəsinə layiq görülür. Həzi Aslanov Stalinqrad vuruşmasında yüksək komandirlik məharəti və şəxsi igidliyi ilə daha da böyük şöhrət qazanmışdır. Aslanovun 55-ci ələhiddə tank polku feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. Bu vuruşmadakı döyüş rəşadətinə görə Aslanov Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, onun polkuna isə qvardiya adı verilmişdir. Aslanovun polku Rostov, Taqanroq şəhər vuruşmasında fəal iştirak etmişdir. Həzi Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdir. O, hərb elminin nailiyyətlərini döyüşlərdə yaradıcı surətdə tətbiq edir, cinahlardan zərbə vurmaq taktikasına daha çox əhəmiyyət verirdi. Stalinqraddan Baltik sahillərinədək döyüş yolu keçən Həzi Aslanov Mitava (indiki Yelqava) şəhəri yaxınlığındakı vuruşmada 1945-ci il yanvarın 24-də qəhrəmancasına həlak olmuşdur. O, 3qırmızı bayraq ordeni, 2-ci dərəcəli Suvorov ordeni, 1-ci dərəcəli Vətən müharibəsi ordeni, 2 Qırmızı ulduz ordeni və medallarla təltif olunmuşdur.

+ + + +

Ədəbiyyat

1. Həzi Əhəd oğlu Aslanovun 90 illik yubileyi haqqında: Azərbaycan Respublikası Prezidentinin sərəncamı. //Azərbaycan.- 2002.- 10 fevral.
2. Abbaszadə H. General: Roman.- B.: Gənclik, 1981.- 356 s.
3. Abbasov M. Böyük sərkərdənin faciəsi: /General-mayor Həzi Aslanovun 85 illiyi münasibətilə / //Azərbaycan.-1995.-31 yanvar.
4. Aslanov Həzi haqqında: Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanov.– B.: Azərnəşr, 1985.- 88 s.
5. Səmədli Əli (Səmədov). Aslanov Həzi haqqında.– B.: Gənclik, 1991.–349 s.
6. Sovet İttifaqı Qəhrəmanları: /Həzi Aslanov və b./ .-B., 1971.- 20 s.
7. Sovet İttifaqı Qəhrəmanları Tank qoşunları general mayoru Həzi Aslanov: Biblioqrafik göstərici: /Tərtib edən Q.Məmmədov.- B.: Azərnəşr, 1985.- 88 s.

TOFİQ BƏHRAMOV – 80

Görkəmli idman xadimi, futbol üzrə Ümumittifaq və beynəlxalq dərəcəli hakim Azərbaycanın əməkdar məşqçisi, əməkdar bədən tərbiyəsi və idman xadimi, Jurnalistlər İttifaqının üzvü Tofiq Bəhram oğlu Bəhramov 1925-ci il yanvar ayının 29-da Bakı şəhərində anadan olmuşdur.

1974-cü ildən M.F.Axundov adına Azərbaycan Redaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunun bədən tərbiyəsi və idman kafedrasının müdiri işləmişdir.

Bolqarıstan, Yuqoslaviya, Macarıstan, Hollandiya, Danimarka, Finlandiya, Misir, İran, Türkiyə və s. ölkələrdə beynəlxalq futbol yarışlarında hakimlik etmişdir.

1966-cı ildə İngiltərədə keçirilmiş futbol üzrə 8-ci dünya çempionatında final oyununu yaxşı idarə etdiyinə görə «Qızıl ilahə»nin surəti və «Qızıl fit» ilə mükafatlandırılmışdır. 1970-ci ildə Tofiq Bəhramov Meksikada keçirilən 9-cu dünya çempionatında da hakimlik etmişdir.

+ + + +

Ədəbiyyat

1. Bayramov O. Tofiq Bəhramov FİFA-nın Azərbaycanda ilk səlahiyyətli nümayəndəsi, yaxud, aləmə səs salan final oyununun hakimi //Xalq qəzeti.- 1997.- 7 noyabr.- S. 22.
2. Kazımzadə A. Futbolun nüfuzunu xilas edən hakim: Tofiq Bəhramov –70 //Azərbaycan.- 1995.- 28 yanvar.
3. Qaradağlı S. Bir anın hökmü : /Məşhur futbol hakimi Tofiq Bəhramov haqqında/ //Panorama.- 1998.- 29 yanvar.

Yaqubov Z. Hakim mərkəzi göstərir... :(Məşhur hakim Tofiq Bəhramov haqqında) //Azadlıq.- 1997.- 22 yanv.- S. 8.

ƏLÖVSƏT ABDULLAYEV- 85

Abullayev Əlövsət Zakir oğlu 1920-ci il fevralın 2-də Şamaxı rayonunun Məlikçobanı kəndində anadan olmuşudur. Yaradıcılıq fəaliyyətinə görə Ə. Abdullayev 1963-cü ildə filoloji elmlər doktoru, 1964-cü ildə professor, 1974-cü ildə Az. SSR Dövlət mükafatı laureatı adını almışdır. 1945-ci ildən Sov. İKP üzvü, 1962-67-ci illərdə S.M.Kirov adına ADU-nun indiki BDU-nun filoloji fakültəsinin dekanı, tədris illəri üzrə prorektoru olmuşdur. 1967-ci ildə ADU-nun Azərbaycan Dilçiliyi kafedrasının müdiri təyin edilmişdir. 1969-ildə Berlində Dünya altayşünaslarının konqresində, 1973-cü ildə Anqarada beynəlxalq türkologiya konfransında məruzə etmişdir. Berlində, Visbadendə, Parisdə, Anqarada məqalələri dərc olunmuşdur.

+ + + + + + + +

Ədəbiyyat

1. Abullayev Ə. Müasir Azərbaycan dili: Sintaksis /Y. Seyidov və A. Həsənovla birlikdə.- B.,1973.
2. Abullayev Ə. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr.- B., 1974.

POLAD BÜLBÜLOĞLU – 60

O, dunyaya gələndə musiqi ilə bələnib. İlk dəfə söz əvəzinə musiqi eşidib. O, professional Azərbaycan vokal məktəbinin banisi, unudulmaz, dahi xanəndəmiz Bülbülün evində dünyaya göz açıb. Söhbət Polad Bülbüloğlundan gedir. Azərbaycan musiqi mədəniyyətinin ən görkəmli nümayəndəsi Bülbülün oğlu Polad, indi dünyanın müxtəlif ölkələrində tanınan bəstəkar-müğənni Polad Bülbüloğludur. O, atasının qoyduğu yolla gedən bir insandır. O, İncəsənət xadimi, həm bəstəkar, həm də böyük mədəniyyət təşkilatçısıdır. Polad həm də Azərbaycanın mədəniyyət naziridir.

Məmmədov Polad Murtuza oğlu 1945-ci il fevral ayının 4-də Bakı şəhərində anadan olmuşdur. Hələ kiçik yaşlarından musiqiyə böyük həvəsi olan Polad Bülbüloğlu Azərbaycanın müxtəlif yerlərində atası ilə birlikdə konsert verir və xalq tərəfindən böyük məhəbbətlə qarşılanırdı. Onda o, hələ konservatoriyanın nəzdindəki 10 illik musiqi məktəbində oxuyurdu Musiqiçilər məclisinə yeni bir cığır açılırdı.

Bir dəfə atasının sevdiyi «Bayatılar» kitabını vərəqləyirdi. Elə-belə öz-özünə bir mahnı zümzümə etdi. Kitabı örtüb yerinə qoydu. Lakin bayatılar ondan əl çəkmədi. «Ayrılıq», «Dilin can incidəndir», «Ol bizim elli» mahnıları yarandı. Bu mahnılarda gənc bəstəkar oynaq, şən, rəvan musiqi dili ilə zəhmətdən, dostluqdan, məhəbbətdən söz açırdı.

Musiqi məktəbini bitirdikdən sonra Polad Bülbüloğlu Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq bölməsinə daxil olur. Dahi bəstəkarımız Qara Qarayevin sinfində təhsil alır. 1968-ci ildə konservatoriyanı müvəffəqiyyətlə başa vurur.

Polad Bülbüloğlu dəfələrlə Ümumittifaq televiziyası mahnı müsabiqələrinin laureatı olmuşdur. Hələ gənc yaşlarında bəstələdiyi «Quşlar məhəbbət haqqında oxuyurlar», «Dəniz neftçiləri haqqında», «Bakı payızı», «Sən eləsən, mən belə», «Durnalar», «Afrikalı qızın mahnısı», «Zəng elə barı», «Dolalay» kimi mahnıları nəinki Azərbaycanda, hətta bir sıra xarici ölkələrdə də sevilərək dinlənirdi.

Mahnıların əksəriyyətini özü ifa etdiyi üçün Polad Bülbüloğlu müğənni kimi də sevilirdi. O, mahnı bəstəkarı və öz mahnılarının ifaçısı kimi tanınmışdır. Lakin o, təkcə mahnı yazmaqla

kifayətlənməmiş, bir sıra variasiyaların, prelüdlərin, fortepiano üçün sonatinaların, skripka və fortepiano üçün pyeslərin, simli kvartet və simfonik poemaların müəllifi olmuşdur.

Onun kinofilmlərə yazdığı musiqilər də müvəffəqiyyət qazanmışdır. «İstintaq davam edir» filminə bəstələdiyi musiqi kino sahəsində ilk təcrübəsi idi. «Uşaqlığın son gecəsi», «Baş müsahibə», «Sevinc buxtası», «Mən mahnı qoşuram», «Qorxma mən səninləyəm!» filminə bəstələmiş olduğu mahnılar da çox uğurla qarşılanmışdır.

1973-cü ildə Polad Bülobüloğlu Azərbaycan SSR əməkdar incəsənət xadimi, 1988-ci ildə Azərbaycan SSR xalq artisti adına layiq görülmüşdür.

1988-ci ildə Polad bülbüloğlu Azərbaycanın Mədəniyyət Naziri vəzifəsinə təyin edilmişdir.

+ + + + + + + +

Ədəbiyyat

1. Bülbüloğlu P. Sabahın xeyir olsun: Fortepiano ilə oxumaq üçün.- B.: Azərnəşr, 1965.- 4 s.
2. Bülbüloğlu P. Mahnılar. Fortepiano ilə oxumaq üçün.- B., 1967.- 24 s.
3. Bülbüloğlu P. Mahnılar. Fortepiano ilə oxumaq üçün.- B., 1968.- 23 s.

* * *

1. Alacızadə Asya. Polad Bülbüloğlu MDB ölkələrinin mədəni əməkdaşlıq şurasının sədri seçilmişdir //Xalq qəzeti.- 2002.- 28 sentyabr.- S. 5.
2. Hidayətoğlu Y. Afalar içindən desə də :(Sentyabrın 22-23-də Ufada Türksoyun 20-ci dönən Toplantısında Polad Bülbüloğlunun yenidən baş direktor seçilməsi haqqında) // Mədəni-maarif. – 2003. -№10.- S. 3-4.
3. Hüseynova Rəfiqə. Poladın mahnıları:/ Polad Bülbüloğlu haqqında/ // Ədəbiyyat və incəsənət.- 1970.- 21 noyabr.- S. 5.
4. Qoca F. Polad Bülbüloğlu: (haqqında)/ // Qobustan.- 1980.- №1-2.- S. 103-105.

ƏZİZ MİRƏHMƏDOV - 85

Ədəbiyyatşünas, tənqidçi, Azərbaycanın Əməkdar elm xadimi, filologiya elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Mirəhmədov Əziz Mirfeyzulla oğlu 1920-ci il fevral ayının 11-də Bakı şəhərində anadan olmuşdur. Sonra isə APİ-nin filologiya fakültəsində, sonra isə ADU-nun filologiya fakültəsinin dördillik şöbəsində təhsil almışdır. O, 1938-1941-ci illərdə Əmək fəalliyyətinə SSRİ EA Azərbaycan filialının Nizami adına Dil və Ədəbiyyat İnstitutunda labarant kimi başlamışdır. ADU-nun baş müəllimi, Azərnəşrdə baş redaktor və Az. EA Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru 1959-1960-cı illərdə işləmiş, sonra partiya işinə irəli çəkilmişdir. 1955-ci ildə «M.Ə.Sabirin həyatı və yaradıcılığı» mövzusunda namizədlik disertasiyası, 1976-cı ildə «Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) və XX» əsrin əvvəllərində «Azərbaycan dövrü mətbuat məsələləri» mövzusunda doktorluq disertasiyası müdafiə etmişdir. Hazırda Azərbaycan EA Terminologiya Komitəsinin sədr müavini, Azərbaycan EA Xəbərləri (ədəbiyyat, dil və incəsənət seriyası) jurnalının, «Azərbaycan Ensiklopediyası» elmi redaksiya şurasının üzvü olmuşdur. Xidmətlərinə görə Azərbaycan Ali Rəyasət Heyətinin fəxri fərmanı və üç medalla təltif edilmişdir.

+ + + + + + + +

Ədəbiyyat

1. Mirəhmədov Ə. Abdulla Şaiq. - B.: Azərb. EA nəşri, 1956.- 146 s.
2. Mirəhmədov Ə. M.F.Axundov.- B.: Azərnəşr, 1953.- 96 s.
3. Mirəhmədov Ə. Azərbaycan Ədəbiyyatına dair tədqiqlər: (XIX-XX əsrlər.) - B.: Maarif, 1983 .- 364s.
4. Mirəhmədov Ə. Məhəmməd Hadi.- B.: Uşaqnəşr., 1962 .- 202 s.
5. Mirəhmədov Ə. Yazıçılar, talelər, əsərlər.- B.: Azərnəşr, 1978.- 312 s.

MİKELANCELO – 530

İtaliyanın məşhur heykəltəraşı, boyakarı, memarı və şairi Mikelancelo Byonarroti Mikelan Jolo di Yodobiko di Lionardo di Buonarroqo Simoni 1475-ci ildə martın 6-da Kaprze, İndiki Kapreze Mikalenceloda anadan olmuşdur. Renessans mədəniyyətinin ən görkəmli nümayəndələrindən biridir. C.Girlandayo (1488-89) və heykəltaraş Bertoldo di Covannidən (1489-90) dərs almışdır. Yaradıcılığının inkişafına Cotto, Donatello, Mazaççonun, eləcə də antik heykəltaraşlığın böyük təsiri olmuşdur. Hələ ki, əsərlərində («Modonna pilləkən yanında», «Gentavrların döyüşü», «Hər ikisi mərmər, tərq» (1490-92) Buonarroti muzeyi, Flopensiya).

Mikelancelo yaradıcılığının başlıca cəhətləri obrazların monumentallığı, plastik gücü və dramatizmi, insanpərvərlik hissləri bütün təfərrüatı ilə özünü biruzə verir. Romada olarkən yaratdığı «İsanın meyidi üzərində ağlaşma» («Ryeta»: 1498-1501, Müqəddəs Ryotra kilsəsi, Roma) heykəli Mikelancelo üslubunun püxtələşdiyini göstərir. Mikelancelo 1501-ci ildə Florensiyaya qayıtmış, qəddar Mediçilərin hökmranlığına son qoymuş, respublika vətəndaşlarının qəhrəmanlığını təcəssüm etdirən simvolik əsərlər üzərində işləmişdir. 1505-ci ildə papa II Yuli M-ru Romaya çağırmış, özünün məqbərəsini yaratmadığını tapşırmışdı. 1546-cı ildən Romadakı Müqəddəs Pyotr kilsəsinin layihəsi üzərində işləmiş, onun mehrab hissəsinin klassik memarlıq orderləri sistemi üzrə möhtəşəm dinamik formalarda həll etmişdir. M.Renessans dövrü memarlığında monumental ansambl probleminin həlli sahəsində ilk təşəbbüs göstərərək Kapitoli meydanını layihələşdirirdi.

Mikelancelo qoca yaşlarında poeziyaya daha çox maraq göstərmişdir. Əsasən madriqal və sonetlər yazmışdır. İlk şerlər kitabı 1623-cü ildə nəşr edilmişdir. D.Şostakoviç Mikelancelonun sözlərinə vokal süita yazmışdır. Mikelancelonun yaradıcılığı insan şəxsiyyətinə pərəstiş, insanların böyüklüyünə və gözəlliyinə inam hissləri aşılamışdır. Mikelancelo mübariz insan və vətəndaş olmuş, doğma yurdunun istiqlaliyyəti və azadlığı arzusu ilə yaşamışdır.

Mikelancelo 1564-ci il fevralın 18-də Toskanada vəfat etmişdir.

++++ ++++

Ədəbiyyat.

1. Həbibov H. Mikelancelo.- B., 1977.
2. Роллан К. Жизнь Микеланджело, Совр. соч.; 2.- М., 1961.
3. Манн Еротика. Микеланджело, Собр. соч., Т. 10.-М.,1961.
4. Стоун И. Муки и радости.- М., 1971.
5. Лазерев В.Н. Микеланджело // Старые итальянские Мастера.- М., 1972.

44874

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

BƏŞİR SƏFƏROĞLU - 80

İstedadlı aktyor, Azərbaycan Respublikasının xalq artisti Bəşir Səfəroğlu 1925-ci il martın 11-də Bakıda anadan olmuşdur. 1942-ci ildən Azərbaycan Musiqili Komediya Teatrında işləmişdir.

Bəşir Səfəroğlu yaratdığı obrazlarda nadanlığı, geriliyi, riyakarlığı qamçılamış, səhnə realizminə sadiq olmuşdur. Onun ifasında incə yumor, mənalı gülüş, zəngin mimika və s. cəhətlər əsas idi. Əsas rolları: Uzun («Toy kimindir?»), Hacı Kərim («Hacı Kərimin Aya səyahəti»), Məşədi İbad («O olmasın bu olsun»), polis rəisi («Milyonçunun dilənçi oğlu») və s.

1964-cü ildə «Ulduz», «Əhməd haradadır?», 1967-ci ildə «Xoca Nəsrəddinin 12 qəbri və s. filmlərə çəkilmişdir.

«Bizə bircə xal lazımdır» musiqili komediyasının libretto müəlliflərindəndir.

+ + + + + + + +

Ədəbiyyat

1. Qəlblərdən silinməyən gülüş: /Görkəmli aktyor Bəşir Səfəroğlunun doğum günü münasibətilə/ // Azərbaycan.- 2000.- 11 mart.
2. Mükərrəm oğlu M. Bəşir Səfəroğlunun yaradıcılıq yubileyi // Xalq qəzeti.- 2002.- 13 mart.- S. 5.
3. Xəlilzadə Flora. İnsanları düşündürən gülüş: /Azərbaycan teatrı – 125/ // Azərbaycan.- 1999.- 9 noyabr.- S. 6.
4. Tünzalə. Bəşir Səfəroğlu və 77 yaş// Şərq qəzeti.- 2002.- 12 mart.

VAQİF MUSTAFAZADƏ - 65

Görkəmli pianoçu, musiqiçi və bəstəkar, caz musiqisi ustalarından biri Azərbaycanın əməkdar artisti, Dövlət mükafatı laureatı Vaqif Əziz oğlu Mustafazadə 1940-cı il martın 16-da Daşkənd şəhərində anadan olmuşdur. Asəf Zeynallı adına Bakı Musiqi Məktəbini bitirdikdən sonra Gürcüstan Dövlət Filarmoniyasında «Qafqaz» caz – triosunu yaratmışdır.

Azərbaycan Dövlət Estrada Orkestrinin solist-pianoçusu olmuş, «Leyli» adlı ilk qadın vokal kvartetinə, «Sevil» vokal instrumental ansamblına və «Muğam» instrumental ansamblına rəhbərlik etmişdir. Orijinal ifaçılıq üslübüna malik olan Mustafazadə Azərbaycan muğamları və xalq havalarını yaradıcılıqla işləmişdir. Vaqif Mustafazadə «Tallin- 66», «Tbilisi –78» Ümumittifaq caz festivallarının laureatı olmuş, bəstəkarların Monte-Karloda 8-ci Beynəlxalq caz müsabiqəsində 1-ci mükafata layiq görülmüşdür. Vaqif Mustafazadə fortepiano və simfonik orkestr üçün konsertin, «Muğam» simfoniyasının və s. Əsərlərin müəllifidir.

+ + + + + + + +

Ədəbiyyat

1. Abbaslı R. «Bakı gecələri» onsuz darıxır: Vaqif Mustafazadə – 60 //Azərbaycan.- 2000.- 18 mart.- S. 8.
2. Abdin T. Mustafazadə V.: Ömrün son saatları// Şəfəq.- 1992. - S. 5.
3. Abdin T. Vaqif Mustafazadəyə: /Şer/ // Azərbaycan.- 1981.- № 6.- S. 114-115.
4. Anar. /Vaqif Mustafazadə haqqında/ // Azərb. Gəncləri.- 1985.- 16 mart.

MİKAYIL RZAQULUZADƏ – 100

Rzaquluzadə Mikayıl Manaf oğlu – nasir, şair, tərcüməçi, 1934-cü ildən Yazıçılar Birliyinin üzvü, Azərbaycanın qabaqcıl maarif xadimidir. Müəllif özünə otuzuncu illərdə «Mimre», «M.R.Mikayıl» kimi ədəbi təxəllüslər seçmiş, sonralar isə M. Rzaquluzadə kimi fəaliyyət göstərmişdir.

O, 1905-ci il mart ayının 17-də Bakı şəhərində anadan olmuşdur. İbtidai təhsilini yeni üsullu «Mədrəsəyi-nur» məktəbində və mollaxanada, sonra yeni üsullu 5 saylı rus-müsəlman məktəbində almışdır. Sonralar xüsusi müəllim yanında hazırlaşıb Bakıdakı ticarət məktəbinə daxil olmuşdur. 1917-18-ci illərdə Bakı 1-ci realnı məktəbi milliləşib «Edadi» adını aldı. Sonralar bu məktəb Azərbaycan Ali Pedoqoji İnstitutu nəzdində A.Şaiq adına nümunə məktəbinə çevrildi. Mikayıl Rzaquluzadə həmin məktəbin son sinfində ikən ekstern imtahan verib Ali Pedoqoji İnstitutun tarix-ədəbiyyat fakültəsinə daxil oldu. Təhsil müddətində o, Bakı vilayət hərbi komissarlığında jurnalist, Bakının Sabir adına kitabxanasında və fəhlə rayonlarının kitabxanalarında kitabxanaçı, Bakı Mərkəzi kitabxanasında kollektor müdiri, Pedoqoji İnstitut kitabxanasında müdir müavini, müdiri vəzifələrində çalışmışdır.

O, 1984-cü il noyabrın 10-da vəfat etmişdir. Burada küçələrdən birinə onun adı verilmişdir.

M. Rzaquluzadənən bədii yaradıcılığı çox zəngindir. Məhz ona görə onun əsərləri haqqında oxuculara məlumat vermək olduqca faydalıdır.

+ + + + + + + +

Ədəbiyyat

1. Rzaquluzadə M. Baharın elçiləri.- B.: Gənclik, 1968.- 14 s.
2. Rzaquluzadə M. Dan söküləndə.-B.: Uşaqgəncnəşr, 1952.-84 s.
3. Rzaquluzadə M. Dəniz nağılı.- B.: Gənclik, 1967.- 16 s.
4. İlin yazı-elin sazı: (Şerlər, poemalar, rəvayətlər və nağıllar).- B.: Gənclik, 1981.- 256 s.
5. Rzaquluzadə M. İstək.- B.: Uşaqgəncnəşr, 1952.- 84 s.

Rzaquluzadə M. Quş dili bilən Orxan.- B.: Gənclik, 1972.- 126 s.

MƏHƏMMƏD HÜSEYN ŞƏHRİYAR – 100

Məhəmməd Hüseyn Şəhriyar 1905-ci il martın 21-də Təbrizdə huquqşünas ailəsində anadan olmuşdur. İlk təhsilini mollaxanada, orta təhsilini Təbrizdə «müttəhide» və «fyuzat» mədrəsələrində almışdır. Tehran Universitetinin Tibb fakültəsində təhsilini davam etdirmişdi. İlk şerləri «Ərmağan» jurnalında Behcət ləqəbi ilə çıxmışdır Demokratik fikirli ziyalılarla əlaqə saxladığına görə universitetin son kursunda oxuyarkən Xorasana sürgün edilmişdir. Onun ilk şerləri 1929-cu ildə nəşr edilib.

Xorasana sürgün illərində Nişabur və Məşhəd şəhərində mülkü sənədləri təsdiq edən idarədə işləyir. 1937-38-ci ilərdə Tehranda kənd təsərrüfatı bankında hesabdar işləyir. 1954-1974-cü illərdə Təbrizdə yaşayır, «Heydər babaya salam» poemasını tamamlayır, fars dilində şerlər küllüyyatını nəşrə hazırlayır. 1957-58-ci illərdə Tehranda dördcildlik divan fars dilində çap olunur. Tehrana köcən şair həyat yoldaşının vəfatından sonra yenidən Təbrizə qayıdır. 1988-ci ildə sentyabrın 18-də Tehranda vəfat etmiş, Təbrizdə məqbərətüşşüəra qəbirstanlığında dəfn olunmuşdur.

+ + + + + + + +

Ədəbiyyat

1. Şəhriyar M. Secilmiş əsərləri.- B.: Azərnəşr, 1966.- 279 s.
2. Şəhriyar M. Aman ayrılıq.- B.: Yazıcı, 1981.- 106 s.
3. Şəhriyar M. Heydərbabya salam.- B.: Azərnəşr, 1964.
4. Şəhriyar M. Külliyyati divane Şəhriyar.- Təbriz, 1987.- 760 s.
5. Şəhriyar M. Yalan dünya.- B.: Az-n ensiklopediyası nəşri, 1993.- 496 s.

SÜLEYMAN RƏHİMOV - 105

Süleyman Rəhimov 1900-cü il mart ayının 22-də Zəngəzur qəzasının Əyin kəndində kəndli ailəsində anadan olmuşdur. İlk təhsilini kənd mollaxanasında almışdır. Eyni zamanda işləmişdir. Sonra Şuşada Pedaqoji kursda oxumuşdur. 1921-1925-ci illərdə Zəngəzur, Qubadlı və Laçın rayonlarında müəllimlik etmiş, yay ayları pedaqoji kurslarda təhsil almışdır.

Yazıçının ilk əsəri «Şamo» 1931-ci ildə çap edilmişdir. Bu əsər on beş cildlik epopeya kimi tamamlanmış çox qiymətli əsərlər sırasına daxil edilmişdir. Yazıçının bir çox əsərləri, roman və povestləri, hekayələri hamı tərəfindən sevilə-sevilə oxunur. Onun əsərlərində insanların vətənpərvərliyi, Azərbaycan xalqının tam bir əsrlik tarixi öz əksini tapmışdır. Onun əsərləri bir çox dillərə tərcümə olunmuşdur. Yaradıcılıq fəaliyyətinə görə yazıçı orden və medallarla təltif olunmuş, qızıl qələm mükafatına layiq görülmüşdür.

S.Rəhimov 1983-cü il oktyabrın 11-də Bakıda vəfat etmişdir. Fəxri xiyabanda dəfn olunmuşdur.

\+ + + + + + + +

Ədəbiyyat

1. Rəhimov S. Seçilmiş əsərləri: On cilddə.- B.: Maarif, 2002.- I cild. Saçlı: Roman.- 2002.- 591 s.
2. Rəhimov S.Seçilmiş əsərləri: On cilddə.-B.:Azərnəşr,1968-1980.
   I cild. 1968.- 595 s.
   II cild. 1968.- 358 s.
   III cild. 1970.- 413 s.
   IV cild. 1971.- 519 s.
   V cild. 1974.- 526 s.
   VI cild. 1976.- 511 s.
   VII cild. 1979.- 512 s.
   VIII cild. 1979.- 316 s.
   IX cild. 1980.- 336 s.
   X cild. 1980.- 328 s.
3. Rəhimov S. Kəsilməyən kişnərti: Əfsanə-povest.- B.: Gənclik, 1993.- 69 s.

* * *

1. Quliyev C. Xalqdan-xalqa: (Elmi-publisistik oçerk).- B.: Vətən, 1995. - 102 s.
2. S.Rəhimov ədəbi tənqiddə.- B.: Maarif, 2002.- 315 s.
3. Abbaszadə H. Portret cizgiləri// Azərbaycan.- 1985.- № 12.- S. 137-149.
4. Babayeva Ə. Ölməzlik dünyası // Ədəbiyyat və incəsənət. - 1989.- 31 mart.

ƏZİZ ŞƏRİFOV - 110

Əziz Qurbanəli oğlu Şərifov 1895-ci il martın 28- də Naxcıvanda anadan olmuşdur. 1915-ci ildə orta təhsilini Tiflisdə almışdır. 1925-35-ci ilərdə Zaqafqaziya mərkəzi icraiyyə komitəsində məsləhətçi işləmişdir. 1943-cü ildə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunun Tənqid bölməsini bitirmişdir. Sonra SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnctitutunda Baş elmi işçi olmuşdur. 1961-1988-ci illərdə M.B.Lomonosov adına Moskva Dövlət Universitetininin filologiya fakültəsində SSRİ xalqları ədəbiyyatı kafederasının professoru vəzifəsində calışmışdır. Ədəbi fəaliyyətinə «Molla Nəsrəddin» jurnalında dərc olunan «Naxçıvandan məktublar» ilə başlayır. Bundan sonra tənqid və ədəbiyyatşünaslıq və bədii tərcümə sahasində faliyyət göstərmişdir. M.Qorkinin «Ana», «Düşmənlər», A.Fadeyivin «Tarmar» əsərini rus dilindən çevirmiş və çap etdirmişdir. Azərbaycan bədii ədəbiyyatından ruscaya da çoxlu tərcümələr etmiş, onlara ön söz yazmışdır. İki medalla təltif olunmuşdur. O, 1988-ci il mayın 28-də Moskvada 94 yaşında vəfat etmiş, Naxcıvan şəhərində dəfn olunmuşdur.

+ + + + + + + +

Ədəbiyyat

1. Şərif Əziz. Sabir bu gun.- B.: Uşaqgəncnəşr, 1942.- 23 s.
2. Şərif Əziz. Molla Nəsrəddin: (Cəlil Məmmədquluzadə).- B.: Azərnəşr, 1946.- 56 s.
3. Şərif Əziz Keçmiş günlərdən.- B.: Azərnəşr, 1977.- 301 s.
4. Şərif Əziz Kecmiş günlərdən. Atam və mən...- B.: Yazıçı, 1983.- 613 s.

NƏRİMAN NƏRİMANOV - 135

Nəriman Nəcəf oğlu Nərimanov 1870-ci ildə aprel ayının 14-də Tiflis şəhərində anadan olmuşdur. Ona ulu babasının adını qoymuşlar. Nərimanın atası Kərbəlayı Nəcəf Allahverdi oğlu xırda ticarətçi, anası Həlimə xanım Hacı Məmməquaiim qızı qayğıkeş və mehriban evdar qadın idi. Onların yeganə arzusu hər şey barəsində öz fikri olan, müstəqil hərəkət etməyi sevən Nərimana təhsil vermək idi. 1882-ci ildə N.Nərimanov Qori müəllimlər seminariyasına daxil olur. O, hələ kiçik yaşlarından tarix və ədəbiyyata böyük maraq göstərir. Qori seminariyasında təhsil alan N. Nərimanov xalqlar dostluğunun əhəmiyyətini aydın surətdə dərk edirdi. Qori seminariyasında o, ilk dəfə ədəbi yaradıcılığa başlayaraq , özünün «Nadanlıq» adlı ilk dram əsərinin iki pərdəsini yazır. 1890-cı ildə seminariyada təhsilini bitirən N.Nərimanov Tiflis quberniyasının Qızılhacılı kəndində müəllimliyə başlayır. Sonra xalq məktəbləri müəllimi adını alır. 1891-ci ildə Bakıya köçən N.Nərimanov "Qara qızıl səltənətində" geniş mədəni-maarif və ədəbi fəaliyyətə başlayır. Öz xalqının maarif və mədəniyyətini yüksəltmək, başqa xalqların mədəniyyəti ilə tanış etmək, ünsiyyət yaratmaq məqsədilə Nərimanov Bakıda ilk qiraətxana yaratmaq məqsədilə rəsmi hökumət orqanlarından çətinliklə icazə alır. Lakin bu məqsəd din xadimlərini özündən çıxarır, qiraətxananı qorxulu küfr və itaətsizlik ocağı adlandırırdılar. N.Nərimanov öz ictimai və ədəbi fəaliyyətində zəhmətkeş xalqın azadlığı və haqq işi uğrunda mübarizəsini inadla ardıcıl olaraq davam etdirirdi.

1894-cü ildə «Nadanlıq». 1895-ci ildə «Şamdan bəy», 1889-cu ildə «Nadir şah». 1896-1908-ci ildə «Bahadur və Sona» kimi ədəbi əsərlərində dövrün ictimai problemlərinə toxunmuş, sosial və mədəni məsələlərə dair povestlər və publisistik məqalələr yazmışdır. 1902-ci ildə N.Nərimanov özünün çoxdankı arzusunu həyata keçirmək, tibbi təhsil almaq məqsədilə Odessaya gedir və böyük çətinliklə Odessa universitetinin tibb fakültəsinə daxil olur.

N.Nərimanovun tələbəlik illəri birinci rus İnqilabının ən burulğanlı, fırtınalı dövrünə təsadüf edir.

N.Nərimanov İnqilabi fəaliyyətilə yanaşı qabaqcıl və nümunəvi tələbə idi. 1908-ci ildə N.Nərimanov universitetin tibb

fakultəsini müvəffəqiyyətlə bitirərək həkim adını alır və sonra universitetin klinikasında işlədikdən sonra doğma Bakıya qayıdır. N.Nərimanov 1918-ci ildə həkimlərin təkidilə müalicə olunmaq üçün Həştərxana yola salınır. 1920-ci ildə Bakıya gələrək bir sıra məsul vəzifələrdə çalışır. 1920-ci il aprelin 27-də, Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi ərəfəsində Nəriman qiyabi olaraq Azərbaycan İnqilab Komitəsinin, sonra isə Azərb. SSR XKC-nin sədri seçildi. 1925-ci ildə bütün ölkədə Nərimanovun ictimai və siyasi fəaliyyətinin 30 illiyi təntənə ilə qeyd olunmuşdur. N.Nərimanov 1925-ci il martın 19-da qəflətən vəfat etdi.

+ + + + + + + +

Ədəbiyyat

1. Nərimanov N. Əsərləri.- B.: Azərnəşr.1971.- 240 s.
2. Nərimanov N. Secilmiş əsərləri: Dram əsərləri,roman, povest, hekayələr, məqalələr, felyetonlar.- B.: Azərnəşr, 1985.- 388 s.
3. Nərimanov Nəriman. Seçilmiş əsərləri.- B.: Elm, 1973.- 451 s.
4. Nərimanov N. Hacı Zeynalabdin Tağıyevin 50 illiyi.- B.: Önər, 1994.- 48 s.
5. Nərimanov N. Ucqarlarda İnqilabımızın tarixinə dair: (U.V.Stalinə məktub).- B.: Azərnəşr, 1992.- 77 s.

* * *

1. N.Nərimanovun anadan olmasının 125 illiyinin qeyd edilməsi haqqında. Azərbay-can Respublikası prezidentinin sərəncami. //Azərbaycan.- 1995.- 19 dekabr.
2.Elçin. Nəriman Nərimanov : Şəxsiyyəti və fəaliyyəti.- B., 1997.
3. Əhmədova Q. Nəriman Nərimanov: İdeal və gerçəklik.- B., 1998.
4. Köçərli Firidun. N.Nərimanovun həyat fəaliyyəti və dünya görüşü.- B.: Azərbaycan SSR EA, 1965.- s. 339.
5. Qəhrəmanov B. Doktor Nərimanov.- B., 1990.- 55s.
6. Vahabzadə Bəxtiyar. N.Nərmanov haqqında.// Vahabzadə B. Sadəlikdə böyüklük.- B., 1978.- s. 123-126
7. Əsədov Firidun. Xalq unutmur: /N.Nərmanov-120/ //Azərbaycan gəncləri.- 1990.- 19 aprel.
8.Kazımova Gülcin.N.Nərmanovun yaradıcılığında maarifcilik və mədəniyyət problemi.//Mədəni maarif.-2004.-№2/3.-S.49-50.

ƏLİAĞA ŞIXLİNSKİ – 140

Şıxlınski Əliağa İsmayıl Ağa oğlu 1865-ci il aprel ayının 23-də anadan olmuşdur. 1825-ci ildən orduda xidmət etmiş, Peterburqda artileriya məktəbini bitirmişdir.

Azərbaycanda sovet hakimiyyətinin qələbəsindən sonra Şıxlınski Azərbaycan SSR xalq Hərbi və Dəniz İşləri komissarının müavini işləmişdir. Şıxlınski Azərbaycan Sovet qoşunları qərargahına göndərilmişdir. Generalın İki yüz səhifəlik «Xatirələrim» kitabında onlarla hərbçinin və müxtəlif peşə adamlarının vəzifəsindən yazılmışdır. General xatirələrini yazanda 1942-ci il idi. Şıxlınskinin rus hərbi sənətinin inkişafında, eləcə də gənc Azərbaycan Sovet Respublikasında hərbi kadrlar hazırlanmasında mühüm xidmətləri olmuşdur.

Şıxlınski bədii yaradıcılıqla da məşğul olmuşdur. Şərği publisistik məqalələr yazmış, S.Vurğunun, O.Sarıvəlinin bir sıra şerlərini rus dilinə tərcümə etmişdir.

Şıxlınski Əliağa 1943-cü ildə vəfat etmişdir.

+ + + + + + + +

Ədəbiyyat

1. Şıxlinski Ə. Xatirələrim.- B.:Azərnəşr, 1984.-220 s.
2. Шыхлынский Али Ага. Мои воспоминания.- 2-е.- изд..- Б.: Азернешр, 1984.- 200 с.

* * *

1. Ибрагимов С.Д. Генерал Али Ага Шыхлынский /Жизнь и Деятельность (1865-1943г) Баку, Азернешр, 1975.- 138 с; 7 л.

MİKAYIL RƏFİLİ – 100

Mikayıl Rəfili 25 aprel 1905-ci ildə Gəncə yaxınlığındakı Borsunlu kəndində anadan olub. Gəncədə əmək məktəbini bitirib, sonra Bakıya gəlib iyirmi yaşından «Maarif və mədəniyyət» jurnalının məsul katibi işləyib. Moskva Dövlət Universitetinin ədəbiyyat və incəsənət fakultəsini bitirib. «Azərnəşr»də «Bakinski raboçi» qəzetində APİ və ADU-da müxtəlif vaxtlarda kafedra müdiri, ədəbiyyat İnstitutunda şöbə müdiri işləyib. Mikayıl Rəfili ədəbiyyatşünaslığımızda da rus ədəbiyyatı haqqında geniş söhbət açan alimlərimizdən idi. A.Krılov, A Puşkin, N.Qoqol, A. Çexov və başqaları şair və yazıçılar haqqında kitab məqalələri müəllifini rus ədəbi fikri ilə ictimai fikiri arasında əlaqə məsələləri çox düşündürüb. Mikayıl Rəfilinin bir tərcüməçi kimi əməyi də diqqətəlayiqdir. B.Hüqonun «Səfillər» romanın, birinci və ikinci hissələri «Gülən adam» pyesi, «Ögey ana» pyesi və.s. əsərləri dilimizə Mikayıl Rəfili tərəfindən çevrilmişdir. Azərbaycan dilinə tərcüməçi haqqında mətbuatda ilk sanballı sözü Mikayıl Rəfili söyləmişdir. 1958-ci il aprelin 25-də vəfat etmişdir.

+ + + + + + + +

Ədəbiyyat

1. Rəfili M. M.F.Axundov: (Həyatı, mühiti və yaradıcılığı).- B.: Elm, 1990.- 252 c.
2. Rəfili M. Aleksandr Sergeyeviç Puşkin: /Rus ədəbiyyatının günəşi/.- B., 1942. 24 s.
3. Rəfili M. Anton Pavloviç Çexov: /Həyat və yaradıcılığı və Azərbaycan ədəbiyyatı ilə əlaqəsi/ B.:Azərnəşr, 1944. - 46 s.
4. Rəfili M., Araslı H. Qədim ədəbiyyat.- B., 1950
5. Bənövşələr açılanda: (Şer) //Ədəbiyyat qəzeti.- 1944.- 24 dekabr.
6. Qaranquş yuvası: (Poema) // Vətən uğrunda.- 1943.- №1-2.- S. 87-92.

* * *

1. Ələkbərli Nazif. Mikayıl Rəfili: (Həyat və yaradıcılığı).- B.: Qartal, 1998.- 96 s.

ƏKRƏM CƏFƏR – 100

Cəfərov Əkrəm Səftər oğlu (Əkrəm Cəfər) 1905-ci il mayın 5-də Azərbaycanın İsmayıllı rayonun Lahıc kəndində tacir Seyid Hacı Səftərin ailəsində anadan olmuşdur. Əmək fəaliyyətinə Lənkəran və Qazax bölgəsində müəllimliklə başlamışdır. Moskva Dövlət Universitetinin dil və ədəbiyyat şöbəsini müvəffəqiyyətlə bitirmiş, orada müəllim saxlanmışdır. Eyni zamanda SSRİ Mərkəzi İcariyyə Komitəsi yanında Elmi-tədqiqat İnstitutunun aspiranturasına daxil olmuşdur. «XX əsr Azərbaycan ədəbi dilinin inkişaf mərhələləri» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Azərbaycan EA Nizami adına ədəbiyyat İnstitutunda işləyəndən sonra taleyini Şərqşünaslıq İnstitutu ilə bağlamışdır. Klassik ədəbiyyatin və müqayisəli əruzşunaslıq elminin görkəmli təqdiqatçısı kimi tanınır. Bu istiqamətdə 250-dən artıq elmi məqaləsi və bir neçə monoqrafiyası nəşr edilmişdir. 1991-ci il avqustun 18-də Bakıda vəfat etmişdir.

+ + + + + + + +

Ədəbiyyat

1. Cəfər Ə. Dilşünaslıq elementləri.- B.: Azərnəşr, 1940.- 52 s.
2. Cəfər Ə. Müasir Azərbay an dili oçerkləri.- B.: Azərnəşr, 1941.- 130 s.
3. Cəfər Ə. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. (ərəb, fars, türk, tacik, özbək əruzları ilə müqayisədə).- B.: Elm, 1977.- 416 s.

***

1. Hacıyev T. Böyük əruzşünas: Əkrəm Cəfər – 90 // Ədəbiyyat qəzeti.- 1996.- 12 yanvar.- S.7.
2. Xəlilzadə F. Hərq poeziyasının bilicisi: /Ə.Cəfər haqqında/ //Azərbaycan.- 2000.- 24 sentyvbr.- S.6.
3. Quliyev T. Onun qayğıkeşliyi: /Ə.Cəfər haqqında/ //Ədəbiyyat qəzeti.- 1991.- 13 sentyabr.- S.8.
4. Musayev M. Dahi əruzşünas: Əkrəm Cəfər – 90 // Yeni Azərbaycan.- 1996.- 6 yanvar.
5. Yusifli V. Unudulmayan Əkrəm Cəfər // Panarama.- 1997.- 4 oktyabr.

RƏSUL RZA – 95

Azərbaycanın görkəmli şairi Rəsul İbrahim oğlu Rzayev 1910-cu il mayın 10-da Göyçayda anadan olmuşdur. İbtidai təhsilini Göyçayda I dərəcəli məktəbdə almışdır.

Kiçik yaşlarından bədii yaradıcılığa böyük həvəs göstərmişdir. O, Göyçayda dram dərnəyi yaradır, şəhərdə, kəndlərdə tamaşalar verir. Rayonun ictimai həyatında fəal iştirak etdir.

R.Rza 1924-cü ildə Göyçay şəhər kitabxanasında müdir, 1925-ci ildə isə Həmkarlar klubunda gənclər bölməsinin müdiri işləmişdir. Sonralar 1926-1927-ci illərdə Tbilisidə Zaqafqaziya Kommunist Universtetinin koorperasiya şöbəsində təhsil alır. Bu dövrdə (1927) «Bu gün» adlı ilk şerini «Qığılcım» almanaxında çap etdirir. Sonralar o, bir sox hekayə və şerlərini «Zarya Vastoka» qəzetində dərc etdirir.

1930-cu ildə Bakıya köçməsi onun həyatında dönüş yaradır. O, «Gənc işçi» qəzetində tərcüməçi kimi işə düzəlir, məqalə, oçerk və şerlərininin müntəzəm çap etdirməyə başlayır.

«Çapayev» adlı ilk şerlər kitabı 1932-ci ildə çapdan çıxmışdır. Şair 1931-33 cü illərdə Azərbaycan Elmi Tədqiqat İnsitutunun aspiranturasında, 1934-37-ci illərdə isə Moskvada Kinomotoqrafiya İnstutunda təhsilini davam etdirmişdir. Təhsilini başa vurduqdan sonra bir sıra dövlət təşkilatlarında rəhbər vəzifələrində işləmişdir. 1938-39-cu illərdə Azərbaycan Yazıçılar İttifaqının sədri, 1946-49-cu illərdə Azərbaycan Kinomotoqrafiya naziri, ASE-nin baş redaktoru, Ümumdünya Sülhü müdafiə komitəsinin üzvü və s. məsul vəzifələrdə işləmişdir.

R.Rzanın xidmətləri yüksək qiymətləndirilmiş, ona fəxri adlar verilmiş, 3 dəfə Lenin ordeni ilə təltif olunmuşdur. 1980-ci ildə Sosialist Əməyi Qəhrəmanı, 1960-cı ildə Azərbaycan Xalq şairi, SSRİ dövlət mükafatı laureatı, Azərbaycan Əməkdar İncəsənət xadimi adına layiq görülmüşdür.

1981-ci il aprelin 1-də Bakı şəhərində vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur. Bakı küçələrindən biri onun adını daşıyır

+ + + + + + + +

Ədəbiyyat

1. Rza Rəsul. Seçilmiş əsərləri: (V cilddə) /Tərt.ed. Anar: Red. Arif Əmrahoğlu.- B.: Azərnəşr, 2002.
   I cild.- 455 (1) s.
   II cild. - 460 (1) s.
   III cild- 431 (1) s.
   IV cild. - 432 (1) s.
2. Rza Rəsul.Çinar ömrü.- B.: Azərnəşr, 1990.- 197 s.

* * *

1. Xəyal Sona. R.Rza: (yaradıcılığı əsasında).- B.: 2003.
2. R.Rza xatirələr işığında: R.Rza haqqında xatirələr, məqalələr, çıxışlar/ Tərt. ed. Anar.- B.: AME. 2001.- 507 (1) s.
3. R.Rza: N.Rəfibəyli: (fotokitab) .-B.: Azərbaycan,2001.- 215 (1) s.
4. Yaşıl rəngin işığı: İlk Azərbaycan ensiklopediyasının taleyi ilə bağlı xatirələr, məqalalər toplusu.- B.: Nurlan, 2000.- 206 s.
5. Bəşəri, milli, novatar sənətkar: Xalq şairi Rəsul Rzanın 90 iliyinə həsr olunmuş təntənəli yubiley gecəsi: Azərbaycan Prezidenti Heydər Əliyev yubley gecəsində iştirak etmişdir /Çıxışlar: E.Əfəndiyev və başq. //Azərbaycan.- 2001.- 27 dekabr.
6. Əliyeva R., Aslanova X. Rəsul Rza – 90 // Mədəni-maarif.- 2002.- № 1-2.
7. Jalə C.Aktual və xeyirli: (Rəsul Rza uşaq ədəbiyyatının nəzəri məsələləri haqqında)// Ədəbiyyat qəzeti.- 1997.- 25 aprel.- S.6. 8.
8. Kazımov Aydın. Rəsul Rza və Azərbaycan kinosu// Qobustan.- 2000. № 3.- S. 20-23.
9. Qocayeva Gülbəniz. «Ömür ipək kələf deyil...» // Respublika.- 2001.- 13 fevral.- S. 3.
10. Saleh İttifaq. Ustad Rəsul Rzaya: /Sonetlər çələngi/ //Yeni Azərbaycan.- 2003.- 6 aprel.- S. 6.

MAQSUD İBRAHİMBƏYOV - 70

Maqsud İbrahimbəyov 1935-ci il mayın 11-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra APİ-nun inşaat fakültəsində təhsil almışdır. Eyni zamanda "Politexnik" qəzetinin nəşr edilməsində iştirak etmişdir. Bədii yaradıcılığa 1960-cı ildən başlamışdır. Nasir, dramaturq, kinossenarist və rejissor kimi çoxcəhətli fəaliyyəti ilə ümumittifaq miqyasında tanınır. «Mezozoy əhvalatı» pyesi müsabiqədə 1-ci yer tutmuşdur. Əsərləri keçmiş SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. «Bayquş gəlmədi» və «Bütün yaxşılıqlar ücün ölüm» əsərlərinə görə 1976-cı ildə Azərbaycan Dövlət mükafatı verilmişdir. Kuba, İspaniya, Monqolustan, ADR yaradıcılıq işi ilə əlaqədar ezamiyyətdə olmuşdur. «Qırmızı əmək bayrağı» ordeni və medallarla təltif edilmişdir.

+ + + + + + + +

Ədəbiyyat

1. İbrahimbəyov M. Bütün yaxşılığlara ölüm: /Povestlər/.- B: Azərnəşr, 1993.- 374 s.
2. İbrahimbəyov M. Bayquş gəlmədi: /Povest/ // Ulduz.- 1977.- №6.- S. 22-47.
3. İbrahimbəyov M. Qədim Sfenks gülümsəyir: /Pyes/ //Azərbaycan.- 2003.- № 2.- S. 5-40.
4. İbrahimbəyov M. Düşünməyə dəyər. (Ayna qazeti 27 mart) //Azərbaycan.- 1999.- 3 aprel.- S. 2-5.

* * *

1. M.İbrahimbəyovun «Şöhrət» ordeni ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezitentinin fərmanı //Azərbaycan.- 1999.- 5 fevral.
2. Azərbaycan prezidenti H.Əliyev Respublika Əsilzadələr Məclisinin sədri, Xalq yazıçısı M.İrahimbəyovu qəbul etmişdir //Ədəbiyyat qəzeti.- 1999.- 9 iyul.- S.1.

ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV - 135

Əbdürrəhim bəy Əsəd bəy oğlu Haqverdiyev 1870-ci il may ayının 17-də Şuşada anadan olmuşdur. Haqverdiyev M.F.Axundovun realist ənənələrinin davamçılarındandır. O, 3 yaşında atasını itirmiş, Əmisi Əbdülkərim bəyin, sonra isə atalığı H. Sadiqbəyovun himayəsində yaşamışdır. İlk təhsilini əvvəl Şuşa, sonra isə Tiflis realni məktəblərində almışdır. 1891-ci ildə Peterburq Yol mühəndisləri İnstitutuna daxil olmuş, eyni zamanda, azad müdavim sifətilə Peterburq universitetinin Şərq fakültəsində oxumuşdur. Peterburq mühiti Haqverdiyevin teatr sənətinə məhəbbətini artırmışdır. Tələbəlik illərində Haqverdiyev ilk dram əsərləri «Yeyəsən qaz ətini görəsən ləzzətini» və «Dağılan tifaq» yazmışdır. O, 1899-cu ildə təhsilini bitirib, Şuşaya qayıtmışdır. 1901-ci ildə Bakıya gəlib rejissorluq etmişdir. Ü. Hacıbəyovun «Leyli Məcnun» əsərinin ilk rejissoru Haqverdiyev olmuşdur. 1905-ci ildə Yelizavetpol quberniyasının Dövlət Dumasına deputat seçilmişdir.

Haqverdiyev «Ağa Məhəmməd şah Qacar» tarixi dramını yazmaq üçün 1907-ci ildə İrana səyahət etmişdir. Haqverdiyev burada «Ceyran Əli», «Xortdan», «Həkimi-nuni-səcir», «Ağlağı», «Mozalan», «Süpürgə saqqal» imzaları ilə hekayə və felyetonlar dərc etdirmişdir. Onun «Maralların» adlı silsilə hekayələri, «Xortdanın cəhənnəm məktubları» povesti və s. əsərləri ilk dəfə «Molla Nəsrəddin»də dərc olunmuşdur. Haqverdiyev Azərbaycan tarixinin mühüm mərhələsini əks etdirərək ədəbi fəaliyyətinin ilk dövründə yazmış olduğu «Dağılan tifaq», «Bəxtsiz cavan» (1900), «Pəri-cadu» (1901) pyesləri ilə istedadlı dramaturq kimi tanınmışdır. Haqverdiyevin yaradıcılığının ikinci dövründə (1905-20) «Bomba», «Mütrüb dəftəri», «Qəraət», «Şəbih», «Pir», «Şeyx Şəban» kimi klassik hekayələr yaratmışdır.

«Ağa Məhəmməd şah Qacar» faciəsində Haqverdiyev bir tərəfdən ölkəsinin mənafeyi uğrunda mübarizə aparan, digər tərəfdən isə qaniçən və işğalçı Qacarın ziddiyyətli obrazını yaratmışdır. Anadan olmasının 100 illik yubileyi Ümumittifaq miqyasında keçirilmişdir. Adına küçə, məktəb və s. var. Ağdam dram teatrı Haqverdiyevin adınadır. Haqverdiyev 1933-cü ildə vəfat etmişdir.

+ + + +

Ədəbiyyat

1. Haqverdiyev Ə. Seçilmiş əsərləri.- B.:Maarif, 1987.- 179 s.
2. Haqverdiyev Ə. Seçilmiş əsərləri.- B. 1976.
3.Haqverdiyev Ə.Xortdanın cəhənnəm məktubları:Satirik hekayə.-B.:Gənclik,1987.- 95 s.
4. Haqverdiyev Ə. Qoca tarzən: Hekayələr.- B., 1980.

* * *

1. Əbdürrəhimbəy Haqverdiyev //Azərbaycan yazıçılarının həyatından dəqiqələr.- B.,1979.-S.158-168.
2. Haqverdiyev Ə. // Azərbaycan ədəbiyyatı tarixi: 3 cilddə.- C. 2.- B., 1960.
3. Hüseynov F. Əbdürrəhimbəy Haqverdiyev // Hüseynov F.»Molla Nəsrəddin» və mollanəsrəddinçilər.-B.,1986.-S.162-191.
4. Məmmədov K. Ə.Haqverdiyev.- B., 1970.- 198 s.
5. Zamanov A. Əbdürrəhimbəy Haqverdiyev// Zamanov A. Əməl dostları.- B., 1979.- S. 59-76.

MİXAİL ALEKSANDROVİÇ ŞOLOXOV – 100

Şoloxov 1905-ci il mayın 24-də indiki Rostov vilayətinin Şoloxov rayonunda kəndli ailəsində doğulmuşdur. Ədəbi yazıları sayılan «Don hekayələri» və «Mavi göl» hər ikisi kitablardan toplanmışdır (1923). Vətəndaş müharibəsi və kənndə gedən sosialist dəyişikliklər Şoloxovun hekayələrinin əsas mövzusudur.

Görkəmli şəxsiyyət iki dəfə Sosialist Əməyi Qəhrəmani və Nobel mukafatı laureatıdır. Onun əsərləri SSRİ və dünya xalqları dillərinə tərcümə olunmuş, dəfələrlə səhnələşdirilmiş, ekranlaşdırılmış, sujetləri əsasında musiqi əsərləri yaradılmışdır. Yazıçının vətənində hər il Şoloxov günləri keçirilir. Adına rayon, küçə, kolxoz, sovxoz, məktəb, gəmi var. Moskvada Şoloxovun abidəsi qoyulmuşdur.

Şoloxovun «Oyanmış torpaq» romanında kənddə baş verən İnqilabi dəyişikliklər, yeni ictimai münasibətlərin formalaşması, kollektivləşmə dövrünün çətinlikləri qələmə alınmışdır. Böyük Vətən müharibəsi dövründə çap etdirdiyi hekayə və oçerklərində, habelə «Onlar vətən uğrunda vuruşurdular» romanında, «İnsanin taleyi» (1956-57) hekayəsində Şoloxov sovet adamlarinin qəhrəmanlığını, yaratmışdir. Şoloxovun dünya ədəbiyyatında xidməti əməkçi xalqın sosial, mənəvi və emosional həyatını ilk dəfə bədii vüsətlə əks etdirməsindədir.

+ + + +

Ədəbiyyat

1. Şoloxov M. Əsərləri. 8 cilddə. B.: Azərnəşr, 1963-1967.
I cild. 1963.- 340 s.
II cild. 1964.- 448 s.
III cild. 1965.- 436 s.
IV cild. 1965.- 468 s.
V cild. 1966.- 526 s.
VI cild. 1967.- 391 s.
VII cild. 1967.- 439 s.
VIII cild. 1968.- 418 s.

1. Alməmmədov Alməmməd. Mixail Aleksandroviç Şoloxov.- B.: Elm, 1975.- 31 s.
2. Ağayev Ə. Onun dünya şöhrəti: / M.Şoloxov haqqında/ //Kommunist.- 1975.- 20 may.
3. Bağırov Məmmədağa .Görkəmli söz ustası: /M.A.Şoloxovun anadan olmasının 60 illiyi/ //Kommunist.- 1965.- 23 may.
4. Ədibin dedikləri: / M.A.Şoloxovun yaradıcılıq haqqında fikirləri/ // Ədəbiyyat və incəsənət.- 1975.- 24 may.- S.3 .
5. Hüseynov Yaşar. Böyük sovet ədibi M.A. Şoloxov //Azərbaycan dili və ədəbiyyat tədrisi.- 1986.- № 2.- S. 41-44.
6. Xəlilov Ə. Məna və gözəllik xəzinəsi: /M.A. Şoloxovun anadan olmasının 80 illiyi münasibətilə/ // Bakı.-1985.-23 may.
7. «Səhra qartalı» ilə görüş: /M.A.Şoloxovun anadan olmasının 70 illiyi münasibətilə/ // Ədəbiyyat və incəsənət.- 1975.- 24 may.- S. 5.

HƏSƏN ELSEVƏR – 80

Həsən Elsəvər 1925-ci il mayın 25-də Naxçıvan şəhərində fəhlə ailəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Bakıda M.F.Axundov adına Dövlət Pedoqoji Rus dili ədəbiyyatı İnstitutunda təhsil almışdır (1953-57). Əmək fəaliyyətinə Naxcıvan Dövlət Dram Teatrında artislikdən başlamışdır. Ali təhsil alandan sonra pedoqoji fəaliyyətini davam etdirmişdir. Naxcivanda Babək rayonunun Nehrəm kənd orta məktəbində müəllim, axşam fəhlə gənclər məktəbində direktor, Naxçıvan MSSR Dövlət Televiziya və Radio verilişləri komitəsində redaktor, böyük redaktor vəzifəsində calışmışdir. Hazırda M.S.Ordubadi adına Naxçıvan respublika kitabxanasının direktorudur. Ədəbi fəaliyyətinə 1942-ci il aprelin 3-də «Şərq qapısı» qəzetində çap etdirdiyi «Azərbaycan fəxr edir» adlı ilk şeri ilə başlamışdır. Onun «Vüqarlı gözəl» (1966), «Alınmaz qala» (1976) pyesləri Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulmuşdur. Naxçıvan Dövlət Televiziya və Radio verilişləri Komitəsində "Məktəb həyatı" televiziya jurnalının ştatdankənar redaktoru, Naxçıvan maarif işciləri evi nəzdində fəaliyyət göstərən «valideyinlər» universitetinin redaktoru olmuşdur. Naxçıvan Ali Soveti Rəyasət heyətinin fəxri fərmanı ilə təltif edilmişdir.

+ + + + + + + +

Ədəbiyyat

1. Elsevər H. Gözəllik bulağı.- B.: Azərnəşr, 1974.- 32 s.
Ürəklər bir vuranda.- B.: Azərnəşr, 1964.- 70 s.
2. Elsevər H. Mən əsir doğulmamışam.- B.: Yazıçı, 1978.- 122s.
3. Elsevər H. Ürək daşdan deyil.- B.: Yazıçı, 1982.- 156 s.
4. Elsevər H. Ürəklər bir vuranda.- B.: Azərnəşr, 1964.- 70 s.
5. Elsevər H. Zəlzələ.- B.: Yazıçı, 1987.- 158 s.

MÖHSÜN SƏNANİ – 105

Görkəmli aktyor Möhsün Sadıq oğlu Sənani 19 iyun 1900-cu ildə Tiflisdə anadan olmuşdur. Səhnə fəaliyyətinə 191-ci ildə Tiflis müsəlman teatr truppasında başlamışdır. Möhsün Sənani 1921-ci ildən başlayaraq ömrünün axırına kimi Azərbaycan Dövlət Milli Dram Teatrında işləmişdir.

Möhsün Sənaninin Azərbaycan teatrının inkişafında mühüm xidmətləri olmuşdur. Onun üçün komik və xarakterik rolların ifası, səciyyəvi idi, yaratdığı obrazlar özünəməxsusluğu ilə fərqlənirdi.

Möhsün Sənani Azərbaycan dram teatrının səhnəsində Şərif, Eyvaz, Heydərbəy, Həsənağa kimi obrazlar yaratmışdır.

Möhsün Sənani 1949-cu ildə Azərbaycan Xalq artisti adına layiq görülmüşdür.

Möhsün Sənani filmlərə çəkilmiş, «İsmət», «Kəndlilər», «Yeni horizant», «Səbuhi», «Fətəli xan», «O olmasın, bu olsun» filmlərində müxtəlif rollar oynamışdır.

Möhsün Sənani Qırmızı Əmək Bayrağı, Xalqlar Dostluğu və «Şərəf nişanı» ordenləri ilə təltif edilmişdir.

Möhsün Sənani 1981-ci ilin11 fevralında Bakıda vəfat etmişdir.

+ + + + + + + +

Ədəbiyyat

1. Sənani Möhsün. İgidlik haqqında ballada: /"Yoldaş general" bədii filmi haqqında/ // Bakı.- 1974.- 22 yanvar.
2. Sənani Möhsün. Mənəvi gözəlliyin tərənnümü // Bakı.- 1973.- 30 avqust.
3. Sənani Möhsün .Səməd Vurğun haqqında xatirə // Azərbaycan.- 1976.- № 9.- S. 95-96.

* * *

1. Möhsün Sənaninin 100 illik yubleyi haqqında: Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Azərbaycan.- 2000.- 21 may.- S. 1.
2. Dağıstanlı İ. Möhsün Sənani.- B.: Azərnəşr, 1971.- 48 s.

3. Dadaşov Azad. Möhsün Sənani: (həyat və yaradıcılığı).- B.: Yazıçı, 1981.- 126 s.
4. Dadaşov Azad. Qoçu Əsgər, Şərif... və Sənani // Qobustan.- 1970.- № 3.- S. 68-69.
5. Qənbərli Nüşabə. Səhnəmizin unudulmaz Möhsünü: Möhsün Sənani – 100 // Azərbaycan.- 2000.- 21 iyul.- S. 6.
6. Əliyev Akif. Ayrılığın nə fərqi var ki...: /Möhsün Sənaninin 100 illik yubleyinə həsr edilən tədbir haqqında / // Azərbaycan.- 2000.- 8 dekabr.- S. 4.
7. Görkəmli aktyorun arxivi // Bakı.- 1982.- 9 avqust.
8. Kərimov İ. İstedadlı sənətkar: (Möhsün Sənani haqqında) //Ədəbiyyat və incəsənət.- 1980.- 13 iyun.- S. 3.

ZİYAD SƏMƏDZADƏ – 65

Görkəmli iqtisadçı Ziyad Əliabbas oğlu Səmədzadə 25 iyun 1940-cı ildə Bakı şəhəri Buzovna qəsəbəsində anadan olmuşdur. İbtidai və orta təhsilini Bakı şəhərində almışdır.

Görkəmli alim 1961-76-cı illərdə Azərbaycan Respublikası Elmlər Akademiyasının İqtisadiyyat İnsittunda kiçik, sonra böyük elmi işçi, elmi katib, şöbə müdiri, 1976-78-ci illərdə isə Azərbaycan Dövlət Plan Komitəsinin ET İqtisadiyyat İnstitutunda elmi işlər üzrə direktor müavini, 1978-82-ci illərdə AXTİ-nin elmi işlər üzrə prorektoru vəzifəsində işləmişdir.

Ziyad Səmədzadə 1971-ci ildə İqtisad elmləri doktoru, 1977-ci ildə isə professor adını almışdır.

Ziyad Səmədzadə eyni zamanda «Azərbaycan Xalq Təsərrüfatı» jurnalının baş redaktoru işləmişdir.

İqtisadçı alim kimi dəfələrlə Milli Məclisin deputatı olmuş, Milli Məclis sədrinin I müavini vəzifəsinə seçilmişdir.

Respublikada iqtisadçı kadrların hazırlanmasında Ziyad Səmədzadənin böyük xidmətləri vardır.

\+ + + + + + + +

Ədəbiyyat

1. Səmədzadə Ziyad. Azərbaycan SSR-də əmək məhsuldarlığı və əhalinin məşğuliy-yətinin sadə quruluşu.- B., 1973.- 206 s.
2. Səmədzadə Ziyad. Dağlıq Qarabağ: Naməlum həqiqətlər. - B.: Vətən, 1995.-83 s.
3. Səmədzadə Ziyad. Dünya İqtisadiyyatı: Çin «iqtisadi möcüzəsi».- B.: Gənclik, 2001.- 317 s.
4. Səmədzadə Ziyad. Azərbaycanın xarici iqtisadi əlaqələri // İqtisadiyyat və həyat.- 1991. № 2.- S. 1-5.
5. Səmədzadə Ziyad. EA xalqımızın milli sərvətidir //Respublika.- 2001. 28 aprel.- S. 5.
6. Səmədzadə Ziyad. Qədim ipək yolunun bərpası Respublikamız üçün daim kapitaldır, daim siyasi mövqedir, daim sabit inkişafdır // Azərbaycan.- 1998.- 22 oktyabr
7. Səmədzadə Ziyad. Milli gəlir və onun istehsalı və istifadə olunması haqqında bəzi mülahizələr// Azərbaycan xalq təsərrüfatı.-1990. № 2. -S. 1-6.

* * *

1. Abbasquliyeva E. Özünü konkret işdə sınamalısan// Ulduz.- 1979.- №12.- S. 17-21.
2. Nadirov A., Babayev Ə. Aktual məsələyə həsr olunmuş monoqrafiya // Azərbaycan kommunisti.- 1974.- №10.- S. 99-102.
3. Rəsmi nümayəndə təsdiq edilmişdir :(İspanyanın Barselona şəhərində Beynəlxalq İqtisadçılar İttifaqının illik yığıncağında Akademik Ziyad Səmədzadə bu beynəlxalq təşkilatın Azərbaycanda rəsmi nümayəndəsi təsdiq edilməsi haqqında //Azərbaycan.- 1994.- 25 noyabr.

Azərbaycanda dövrü mətbuatn başlanğıcı sayılan, demokratik ideyalarin carçısı və tribunası olan "Əkinçi" elm, maarif və mədəniyyətin, realist ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradilmasının zəruriyyətinə aid materiallar dərc edən bir qəzet kimi fəaliyyət göstərmişdir. "Əkinçi" mövhumata və cəhalətə qarşı kəskin çıxışlar etmişdir. "Əkinçi"nin banisi, redaktoru, naşiri, korrektoru və bəzən də mürəttibi H.Zərdabi olmuşdur.

Azərbaycanda ilk milli qəzet olan «Əkinçi» 1875-77-ci illərdə Bakıda (2 həftədən bir) nəşr edilmişdir. Onun ilk nömrəsi 1875-ci il iyulun 22-də çıxmışdır. Əkinçidə 1200-ə qədər məqalə, məktub, korrespondensiya, xəbər, felyeton, şer, redaksiya qeydi və s. verilmişdir. Bu qəzetin dili xalq dilinə yaxın sadə və səlist olmuş, xalqın elmi və mədəni cəhətdən tərəqqi etməsi uğrunda çalışmışdır. Əkinçi qadın azadlığı və qadın təhsili ideyasını təbliğ edən ilk azərbaycan qəzetidir.

Qəzetdə aqrotexnika və zootexnikaya aid məsləhət xarakteri daşıyan elmi-kütləvi məqalələr verilmişdir.

Azərbaycan öz müstəqilliyini bərpa edəndən sonra "Əkinçi" qəzetinin nəşri gününü Milli Mətbuat günü kimi qeyd edir.

+ + + + + + + +

Ədəbiyyat

1. Hüseynov Sadiq. «Əkinçi» qəzetinin izahlı biblioqrafiyası.- B., 1963.
2. Məmmədov Xeyrulla. «Əkinçi»dən «Molla Nəsrəddinə» qədər.- B.: Yazıçı, 1987.- 268.- 141 s.
3. Məmmədov Vəli. «Əkinçi» qəzeti. - B.: Azərnəşr, 1976.- 79 s.
4. Nazimqızı Könül. Həqiqət carçısı: («Əkinçi» qəzetinin 125 illiyinə həsr olunur).- B.: Nurlan.- 2000.- 225 s.
5. Əlioğlu Elçin. «Əkinçi» əsl dərslikdir // Azərbaycan.- 2001.-20 iyul.- S. 6.
6. Quliyev N. «Əkinçi» və terminalogiya: /Həsənbəy Zərdabinin nəşr etdiyi «Əkinçi» qəzeti və terminalogiya/ //Elm və həyat.- 1984.- №6.- S. 25.
7. Məmmədov Vəli. Mətbuatımızın qaranquşu: /H.Zərdabi və Əkinçi qəzeti./ // Müxbir.- 1987.- № 7.- S. 23-24.

8. Vəzirov N. Bu halda bizlərdə kitab: /«Əkinçi» qəzetinin 70 illiyi münasibətilə/ // Kommunist.- 1945.- 3 avqust.

MƏMMƏDRZA ŞEYXZAMANOV – 90

Azərbaycanın xalq artisti Məmmədrza İsa oğlu Şeyxzamanov 4 avqust 1915-ci ildə Gəncədə anadan olmuşdur. Xüsusi teatr təhsili olmayan aktyor 1934-cü ildən səhnə həyatına başlamışdır. 1936-cı ildə C.Cabbarlı adına Gəncə dram teatrında çıxış etməyə başlayımışdır.

1954-cü ildən başlayaraq ömrünün sonuna kimi Azərbaycan Milli Dram teatrının aktyoru olmuşdur. Məmmədrza Şeyxzamanov geniş diapazonlu bir aktyor idi. Yaratdığı obrazların psixoloji xüsusiyyətlərinə nüfuz etmək bacarığı Şeyxzamanov üçün əsas keyfiyyət göstəricisi idi.

Görkəmli aktyor Milli teatrın səhnəsində müxtəlif obrazlar yaratmışdır. «Fərhad və Şirin»də Xosrov, «Aydın» da Aydın, «Göz həkimi» ndə Şahbazov və s.

Məmmədrza Şeyxzamanov həmçinin kinoda da çəkilmişdir: «Qızmar günəş altında», «Nəsimi», «Tütək səsi» və s. filmlərdə bir-birindən dolğun, gözəl obrazlar yaratmışdır.

Məmmədrza Şeyxzamanov 1974-cü ildə Azərbaycanın xalq artisti adına layiq görülmüşdür.

O, 1984-cü il yanvarın 25-də Bakı şəhərində vəfat etmişdir.

\+ + + + + + + +

Ədəbiyyat

1. Şeyxzamanov M. Dolğun obrazlar sorağında //Ədəbiyyat və incəsənət.- 1981.- 27 noyabr.- S. 7.
2. Şeyxzamanov M. Keçmiş həqqında müqəddəs xatirə //Bakı.- 1979.- 7 avqust.
3. Şeyxzamanov M. Müdrik Siyasətin təzahürü // Ədəbiyyat və incəsənət.- 1977.- 5 fevral.- S. 2.
4. Şeyxzamanov M. Tənhalıqda həmsöhbət // Bakı.- 1971.- 7 avqust.
5. Şeyxzamanov M. Təzə obrazlar...: /Yeni il arzuları/ // Ədəbiyyat və incəsənət.-1976.- 1 yanvar.- S. 13.

* * *

1. Aktyor evində.: /Xalq artisti Məmmədrza Şeyxzamanova həsr olunmuş gecə haqqında/ // Ədəbiyyat və incəsənət.- 1976.- 20 mart.- S. 8.
2. Əbilov İmamverdi. Yaddaşlara köçən ömür: /Məmmədrza Şeyxzamanov haqqında // Qobustan.- 1986.- №1.- S. 88-93.
3. Əlizadə M. Sənətkar şəxsiyyəti və rollar // Qobustan.- 1976. -№ 4.- S. 73-76.
4. Hüseynzadə A. Xalqın sevimli sənətkarı // İnşaatçı.- 1981.- 10 noyabr.
5. Kazımov Ağakişi. Daim axtarışda // Ədəbiyyat və incəsənət.- 1973.- 6 oktyabr.
6. Rəhimli İlham. Rolun müəllifi // Ədəbiyyat və incəsənət.- 1974.- S. 6-7.

Gİ DE MOPASSAN – 155

Gi de Mopassan 1850-ci il avqustun 5-də Dənizsahili Sena departamenti, Tureilyasür- Ark yaxınlığındakı Miromenil qəsrində anadan olmuşdur. O, Fransanın realist yazıçısıdır. Ruan litseyini bitirmişdir, 1869-cu ildə baalvar adı almışdır.

Yaradıcılığına 70-ci illərdə başlamışdır. İlk hekayə kitabı «Telyenin müəssisəsi»ni İ.İ.Turgenevə ithaf etmişdir.

Mopassan XIX əsr realist fransız ədəbiyyatının son nümayəndələrindəndir. Özünün dediyi kimi ədəbiyyata «meteor kimi gəlib, onu şimşək kimi tərk edən» Mopassan 1 cild şerlər toplusunun, 6 romanın, 16 hekayə və novellanın, 3 yol oçerkləri kitabının müəllifidir.

Mopassan 6 roman və 300-dən çox hekayənin müəllifidir. Hekayələrində burjua cəmiyyətinin eybəcər-likləri, dəbdəbəli zadəgan həyatının boşluğu, insanların əxlaqındakı naqislik-ikiüzlülük, yalançılıq və s. ifşa olunur.

Ümumən Mopassan yaradıcılığına xas olan kəskin tənqid, öldürücü satira və şirin yumor hekayələrini xarakterizə edən əsas məziyyətlərindəndir.

Mopassanın həyat və yaradıcılığına iri həcmli tədqiqat əsərləri həsr edilibdir.

Gi de Mopassan 1898-ci il iyulun 7-də vəfat etmişdir.

+ + + + + + + +

Ədəbiyyat

1. Mopassan. Hekayələr və novellalar.- B.: Yazıçı, 1980.- 182 s.
2. Mopassan. Həyat: (roman).- B.: Azərnəşr, 1936.- 223 s.
3. Mopassan. Dilənçi; Dənizdə: (Hekayələr) // Azərbaycan.- 1984.- № 10.- S. 152-177.
4. Mopassan. Madmazel Fifi: (Hekayə)// Vətən uğrunda.- 1942.- №1.- S. 34-41.
5. Mopassan. Martina: (Hekayə)// Azərbaycan.- 1979.- № 3.- S. 186-189.
6. Mopassan. Rozalı Prodan: (Hekayə)// Azərbaycan.- 1946.- № 7.- S. 27-29.

* * *

1. Gi de Mopassan // Ədəbiyyat və incəsənət .- 1953.- 4 iyul.
2. Hidayət. Mopassanın hərb novellaları // Ədəbiyyat qəzeti.- 1942.- № 14.- 21 may.

MUSTAFA TOPÇUBAŞOV – 110

M.Tobçubaşov Ağabəy oğlu 1895-ci il avqustun 5-də Yerevanda anadan olmuşdur. Kiyev Universitetinin tibb fakültəsini bitirmişdir. 1920-23-cü illərdə Azərbaycan Dövlət Universitetinin tibb fakültəsinin fakültə carrahlğı klinikasında ordinator, 1923-30-cü ilərdə fakültə cərrahlığı klinikasında assistent işləmişdir. 1930-cu ildə N.Nərimanov adına AzərbaycanTibb İnstitutunun fakültə cərrahiyyə kafedrasının müdiri olmuşdur. 1945-48-ci illərdə Azərbaycan SSR Eksperimental Tibb İnstitutunun direktoru olmuşdur. 1937-ci ildə Dünyada geniş istifadə olunan analgeriya üsulunu ilk dəfə M.Topçubaşov kəşf etmişdir. 1950-ci ildə Azərbaycan SSR Sülh Müdafiə Komitəsinin sədri 1960-ci ildə isə Carrahlar və Uroloqlar cəmiyyətinin fəxri sədri olmuşdur. M.Topçubaşova elmi nailyyətlərinə görə 4 dəfə Lenin ordeni, 5 başqa orden verilmişdir. Elmi Təqdiqat Eksperimental və Klinik Tibb İnstitutuna M.A.Topçubaşovun adi verilmişdir.

+ + + + + + + +

Ədəbiyyat

1. Topçubaşov M. Ətraf mühit.- B.: Elm, 1979.- 59 s.
2. Topçubaşov M. Xüsusi cərrahlıq: Tibb İnstitutunun tələbələri ücün dərslik.- B.: Maarif, 1982.- 524 s.
3. Topçubaşov M. Elmin zirvələrinə doğru// Bakı.- 1956.- 27 aprel.
4. Topçubaşov M. Uşaq gülüşü səadət çələngi// Azərbaycan gəncləri.- 1969.- 31 may.
5. Topçubaşov M. Səfərimiz gələcəkdir// Kommunist.- 1976.- 28 aprel.

* * *

1. Məmmədov S. Möcüzələr belə yaranıb: (Akademik M.A.Topçubaşov tibb novatorluğu haqqında)// Ulduz.- 1980.- №12.- S. 44-48.
2. Nehrəmli A. Həkimin hikmət dünyası: (Akademik M.Topçubaşov haqqında)// Sovet kəndi.- 1980.- 27 sentyabr.

Ağ vərəqlər üstə bütün varlığı ilə doğma torpağa bağlı olan və bu torpağın xalq qaynaqları bulağından bəhrələnib görkəmli sənətkar kimi yetişən istedadlı fırça ustası Toğrul Nərimanbəyov güclü və fərdi yaradıcılıq ehtirasına malik bir rəssamdır. O, dünyanı geniş və mürəkkəb bir formada görür, onun nəbzini, qəlbinin döyüntüsünü çox kəskin şəkildə duyur.

Rəssam Toğrul Nərimanbəyov 1930-cu il avqust ayının 7-də Bakıda anadan olub. Rəssam mükəmməl təhsilə malikdir. O, 1950-ci ildə Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbini bitirib. Təhsilini davam etdirmək üçün Litva Dövlət Rəssamlıq İnstitutuna qəbul olunub. Görkəmli pedaqoq və monumentalçı rəssam Y. Mikenasın sinfində oxuyub. 1955-ci ildə həmin institutu müvəffəqiyyətlə başa vurub. Rəssam 1957-ci ildən Ümumittifaq sərgilərdə iştirak etməyə başlamışdır. 1965-ci ildə Çexoslavakiyanın Praqa, Bratislava şəhərlərində, 1967-ci ildə isə Moskvada Şərq xalqlarının Dövlət muzeyində rəssamın fərdi yaradıcılıq sərgisi açılmışdır.

Tanınmış rəssam məişət, portret, mənzərə və natürmort janrlarında, monumental boyakarlıq, illüstrasiya və teatr rəssamlığı sahələrində fəaliyyət göstərir.

Toğrul Nərimanbəyov sənət aləminə 1954-cü ildə gəlib. İlk uğurlu işi «Yaylaqdan dönüş» adlanır. Maldarların həyatından bəhs edən həmin əsər işlənmə texnikasına görə çox orijinaldır.

Rəssam öz yaradıcılığında portret janrına da xüsusi diqqət yetirir. Bu baxımdan onun «Şair Fikrət Qoca», «Rəssamın ailəsi», «Yazıçı Anar», «Qadın portreti» əsərləri çox maraqlıdır. Toğrul Nərimanbəyov bütün portretlərində insanın daxili aləminin, fikir və düşüncəsinin təsvirinə xüsusi üstünlük verir.

Rəssamın tez-tez müraciət etdiyi janrlardan biri də mənzərə janrıdır. O bu janrda ən çox Bakını vəsf edir. Bu qəbildən olan «Bakının görünüşü» tablosu çox səciyyəvidir.

Rəssamın əsərlərində üzərində boy atıb böyüdüyü torpağa, onun adamlarına, milli xüsusiyyət və ənənələrinə böyük məhəbbət hissi duyulur. Bu baxımdan yağlı boya ilə işlənmiş «Musiqiçilər», «Yaylaqda», «Nuxada bazar», «Şamaxıda bazar», «Çoban ailəsi», və s. olduqca maraqlı və diqqətə layiqdir.

Toğrül Nərimanbəyov hətta xarici ölkə xalqlarının həyatından və zəhmət adamlarının əməyindən bəhs edən tablolar seriyası çəkmişdir. Xüsusilə, «Məhsul bayramı» adlı əsərini qeyd etmək olar.

Ümumiyyətlə, Toğrulun yaradıcılığında xalq sənəti örnəklərindən bəhrələnmək, milli ənənələrə sədaqət meyli danılmazdır. Özünəməxsusluğu ilə Azərbaycan rəssamlıq sənətində öz dəsti-xətti ilə seçilən Toğrul Nərimanbəyov Azərbaycan xalqının diqqətəlayiq bir sənətkarıdır . desək, yanılmarıq.

+ + + + + + + +

Ədəbiyyat

1. Nərimanbəyov T. «Sevgi Allahın hədiyyəsidir» /Rəssamla müsahibə/ //Azadlıq.- 1996.-13 avqust.- S.7.
2. Nərimanbəyov T. Yaddaşımda və tablomda yaşayan Bülbül //Xalq qəzeti.- 1997.- 26 noyabr.

* * *

3. Möhbəddin Səməd. Toğrul Nərimanbəyov. Qrafika rəngkarlıq.- Bak:.: İşıq, 1984.
İncəsənət ünsiyyət körpüsünə çevrilir: /Müəllifin yaradıcılığına həsr olunmuş sərginin açılması ilə əlaqədar/ /Söhbəti yazdı M. Səmədoğlu //Kommunist.- 1991.- 20 yanvar.

CƏMŞİD NAXÇIVANSKİ – 110

Görkəmli hərbi xadim, diviziya komandiri Cəmşid Cəfərqulu oğlu Naxçıvanski 1895-ci ildə avqust ayının 10-da Naxçıvan şəhərində anadan olmuşdur. O, Tiflis yunker məktəbində oxumuş, Yelizavetqrad (indiki Ukraynanın Kirovoqrad şəhəri) qvardiya məktəbini bitirmişdir. Birinci dünya müharibəsində müsəlman atlı alayında eskadron komandiri olmuşdur. Fevral-burjua demokratik inqilabından sonra Zaqafqaziya hərbi qüvvələrində xidmət etmişdir. Azərbaycanda sovet hakimiyyəti qalib gəldikdən sonra Naxçıvanskinin komandirlik etdiyi süvari polk bütün heyəti ilə birlikdə Qızıl Ordu tərəfinə keçmişdi. 1921-31-ci illərdə Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri olmuş, yüksək ixtisaslı hərbi kadr hazırlığında mühüm rol oynamışdır. Naxçıvanski 1931-ci ildə Moskvaya Frunze adına Hərbi Akademiyaya oxumağa göndərilmişdi. Akademiyanı fərqlənmə diplomu ilə bitirdikdən sonra, orada müəllim saxlanmış, üç il ümumi taktika kafedrasına rəhbərlik etmiş, akademiyada əsas fakultənin kurs rəisi olmuşdur. 1935-ci ildə Naxçıvanskiyə briqada komandiri hərbi rütbəsi verilmişdir. Qırmızı Bayraq, Qırmızı Əmək Bayrağı, Qırmızı Ulduz ordenləri ilə təltif edilmişdir. Adına Bakıda ixtisaslaşdırılmış internat məktəb, küçə və s. var.

+ + + +

+ + + +

Ədəbiyyat

1. Abbasov Ə. Azərbaycan diviziyasının komandiri: /Cəmşid Cəfər oğlu Naxçıvanski haqqında/ // Elm və həyat.- 1982.- №4.-S. 28-29.
2. Abuşov F. Azərbaycan atlı alayı: /C.Naxçıvanskinin rəhbərlik etdiyi Azərbaycan atlı alayı haqqında/ // Elm və həyat.- 1989.- № 1.- S. 25.
3. Akselrod Q. Xan nəslinin briqada komandiri: /C.Naxçıvanski haqqında/ // Ədəbiyyat və incəsənət.- 1988.- 2 may.- S. 2. («Nedelya».- №17.- 1988).
4. Nəzirli Ş. 37-nin general qurbanları: /Cəmşid Naxçıvanski haqqında/ //Azərbaycan.- 1999.- 27, 28 mart.
5. Nəzirli Ş. Sonuncu Kəngərli generalı Cəmşid xan Naxçıvanski //Xalq qəzeti.-2003.-15 aprel.

BƏXTİYAR VAHABZADƏ – 80

Azərbaycanın xalq şairi, dramaturqu, ədəbiyyatşünası Bəxtiyar Mahmud oğlu Vahabzadə 1925-ci il avqust ayının 16-da Şəki şəhərində fəhlə ailəsində anadan olmuşdur. Kiçik yaşlarında ikən ailəsi ilə birlikdə Bakıya köçmüşdür. Burada orta məktəbi qurtardıqdan sonra 1942-ci ildə ADU-nun (indiki BDU) filologiya fakultəsində təhsil almış. 1947-ci ildə oranı bitirmişdir. Elə həmin ildə Universitetin aspiranturasında saxlanılmış. 1951-ci ildə «Səməd Vurğunun lirikası» mövzusunda namizədlik dissertasiyası, 1964-cü ildə isə «Səməd Vurğunun həyat və yaradıcılığı» mövzusunda doktarluq dissertasiyası müdafiə etmişdir.

Bədii yaradıcılığa 1943-cü ildə «Ana və şəkil» adlı ilk şeri ilə başlamışdır. O, vaxtdan dövrü mətbuatda şerləri , elmi məqalələri müntəzəm çap olunmağa başlamışdır. Bəxtiyar Vahabzadə 1945-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 1949-cu ildə şairin «Mənim dostlarım» adlı ilk şerlər kitabı nəşr olunmuşdur. Bundan sonra şairin «Ədəbi heykəl», «Sadə adamlar», «Köklər...», «Dan yeri» və s. kitabları ardıcıl şəkildə işıq üzü görməyə başlayır. 1959-cu ildə şair Füzuliyə həsr olunmuş «Şəbi-Hicran» poemasını yazır.

B.Vahabzadənin dramaturq kimi də fəaliyyəti çoxşaxəlidir. Onun «Vicdan», «İkinci səs», «Fəryad» və bir çox başqa pyesləri Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuşdur.

B.Vahabzadə 1980-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, professor adına layiq görülmüşdür.

O, Azərbaycanın bir sıra fəxri mükafatlarına layiq görülmüşdür.

+ + + +

+ + + +

Ədəbiyyat.

1. Vahabzadə B. Əsərləri.- VI cilddə.- B.: Azərbaycan, 2001-2003.
   I cild. 2001.- 543 s.
   II cild. 2002.- 573 s.
   III cild. 2002.- 511 s.
   IV cild. 2002.- 607 s.

V cild. 2002.- 503 s.
VI cild. 2003.- 775 s.
2. Vahabzadə B. Seçilmiş əsərləri: II cilddə.- B., 1974-1984.
I cild. 1974.- 383 s.
II cild. 1984.- 460 s.
3. Vahabzadə B. Ağıl başqa, ürək başqa: Şerlər.- B.: Azərbaycan, 2000.- 285 s.
4. Vahabzadə B. Fəryad.- B.: Azərbaycan, 1995.- 351 s.
5. Vahabzadə B. Hara gedir bu dünya?: (Pyeslər).- B.: Azərbaycan, 2001.- 383 s.
6. Vahabzadə B. Ümidə heykəl qoyun.- B.: Yazıçı, 1993.- 122 s.
7. Vahabzadə B. Vətəndaş: Şerlər və poemalar.- B.: Gənclik, 1994.- 223 s.

* * *

1. Cəfərov H. Bəxtiyar Vahabzadə.- B.: Azərbaycan, 1996.- 80 s.
2. Fəryad səsləri (Xalq şairi B.Vahabzadəyə gələn məktublar toplusu).- B.: Az. ENPB, 1994.- 285 s.
3. Türk dünyasının Bəxtiyarı.- B.: Təfəkkür, I hissə, 2002.- 360 s.
4. Ulutürk X. R Ustadı Bəxtiyar Vahabzadə haqqında.-B..: Azərbaycan, 1999.- 125 s.

ŞIXƏLİ QURBANOV – 80

Qurbanov Şıxəli Qurban oğlu 1925-ci il avqustun 16-da Bakıda anadan olub. Ədəbiyyatşünas, filologiya e.d. (1964) Respublika Dövlət mükafatı laureatıdır (1967). Azərbaycan-rus ədəbi əlaqələrinə dair tədqiqatların müəllifidir. Azərbaycan Musiqili Komediya Teatrına, Bakı küçələrindən birinə Qurbanovun adı verilmişdir. O, 1967-ci-il mayın 24-də Bakıda vəfat etmişdir.

\+ \+ \+ \+ \+ \+ \+ \+

Ədəbiyyat

1. Qurbanov Ş. Əsərləri: 3 cilddə.- B.: Azərnəşr, 1968-1970.
I cild. 1968.- 556 s.
II cild. 1970.- 467 s.
III cild. 1969.- 504 s.
2. Qurbanov Ş. Seçilmiş əsərləri.- B: Azərnəşr, 1974.- 376 s.
3. Qurbanov Ş. Ömürdən səhifələr.- B: Yazıçı, 1980.- 430 s.
4. Qurbanov Ş. Pyesler.- B.: Azərnəşr, 1977.- 316 s.
5. Qurbanov Ş. Sənsiz.- B., 1988.- 413 s.
6. Qurbanov Ş. Zərif tellər.- B: Yazıçı, 1991.- 260 s.
7. Qurbanov Ş. Xatirələr: /Müəllifin cəbhə xatirələri/ //Azərbaycan.- 1968.- №4.- S. 53-69.
8.Qurbanov Ş. Ürək çırpıntıları: /Lirik poema/ //Ulduz.- 1968.- №1.- S. 2-5.

* * *

1. Budaqov B. Novruz yaşarlı ömür.- B.: Elm, 1996.- 47 s.
2. Bakir Əliağa. Qəzəl: /Ş.Qurbanovun xatirəsin/ //Ədəbiyyat və incəsənət.- 1989.- 17 mart.- S. 8.
3. Qaraqaya Tofiq. İçərişəhərdə Novruz bayramı: /Ş.Qurbanovun xatirəsinə həsr olmuş şer/ //Azərbaycan.- 1988.- №6.- S. 124.
4. Qurbanova Gulnarə. Ş.Qurbanov Novruz bayramına görə şəhid oldu: /Ş.Qurbanovun qızı ilə müsahibə/ //Yeni Müsavat.- 2001.- 19-23 mart.- S. 12.
5. Musayev Talıb. Yaddaşımızın qızıl səhifəsi: Ş.Qurbanov – 75 //Xalq qazeti.- 2000.- 16 avqust.- S. 3.
6. Ömrün səhifələr: Ş.Qurbanov haqqında xatirələr. //Ədəbiyyat və incəsənət.- 1989.- 10 mart.

Kitabları, məqalələri, məruzə və çıxışları ilə ədəbi ictimaiyyətin diqqət mərkəzində dayanan alimlər cərgəsində Azərbaycan EA müxbir üzvü, Respublika Dövlət mükafatı laureatı Bəkir Nəbiyevin özünəməxsus yeri vardır.

Bəkir Nəbiyev 1930-cu il avqustun 21-də Ağdaş rayonunun Üçqovaq kəndində ziyalı ailəsində doğulmuşdur. Əmək fəaliyyətinə müharibə illərində başlamışdır.

1945-1947-ci illərdə Bəkir Nəbiyev Ağdaş radio şəbəkəsinin direktoru işləmişdir. Sonra, 1949-cu ilədək Ağdaş şəhərinin Yeniarx kəndində müəllimlik etmişdir. O, 1949-cu ildə ADU-nun filologiya fakültəsinə daxil olmuşdur. Tələbəlik illərinldə ilk tənqidi qeydlərini yazmağa başlamışdır.

Bəkir Nəbiyev ədəbi fəaliyyətə «Ədəbityyat qəzeti»-nin 4 noyabr, 1951-ci il tarixli nömrəsində çap edilən «Dama-dama göl olar» rəyi ilə başlamışdır. Universiteti bitirdikdən sonra, 1954-1956-cı illərdə «Azərbaycan gəncləri» qəzeti redaksiyasında məsul katib müavini, ədəbi işçi vəzifələrində çalışmışdır. Daha sonra o, ADU-nun aspiranturasına daxil olmuş, «F.Köçərlinin həyat və yaradıcılığı» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1959-1961-ci illərdə «Kommunist» qəzeti redaksiyasında mədəniyyət şöbəsinin müdiri işləmişdir. 1961-1971-ci illərdə Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunda çalışmışdır. 1971-1987-ci illərdə Azərbaycan SSR EA Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru çalışmışdır. 1994-cü ildə Elm-təhsil Mərkəzi «Təfəkkür» Universitetinin Filologiya kafedrasının müdiri təyin edilmişdir. 1998-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin nəzdində Azərbaycan Dövlət dilinin tətbiqi üzrə Hökumət Komissiyasının üzvü təyin edilmişdir.

Bəkir Nəbiyev ədəbiyyatın bütün janrlarında və mərhələlərində müasirliyi və novatorluğu partiyalılıq, xəlqilik mövqeyindən, sosial problemlər kontekstində analitik təhlildən keçib qiymətləndirən prinsipal tənqidçi kimi tanınmışdır. Bir tənqidçi kimi Bəkir Nəbiyevi səciyyələndirən başlıca cəhət onun bədii sözə qarşı həddsiz həssaslığıdır. Məhz bu səbəbdən ədəbiyyat tarixi, ədəbiyyatşünaslıq və sırf nəzəriyyə məsələləri ilə məşğul olmaqla yanaşı, Bəkir Nəbiyev peşəkar tənqidçidir.

Azərbaycan ədəbi-filoloji fikrinin tarixinə daxil olmuş Bəkir Nəbiyev bu gün də təmkin və səbatla milli-mənəvi təkamülə xidmət etməkdədir.

+ + + +

Ədəbiyyat

+ + + +

1. Nəbiyev B. Didərgin şair :(Almaz İldırımın yaradıcılıq yolu).- B. : Sabah, 1995.- 136 s.
2. Nəbiyev B. Ədəbiyyat və incəsənət 50 ildə.- B.: Azərnəşr, 1970.- 103 s.(Mürsəl Nəcəfovla birlikdə).
3. Nəbiyev B. Əhməd Cavad: («Sındırılan qələmlər» silsiləsindən).- Gəncə , 1999.- 123 s.
4. Nəbiyev B. Janrın çətin yallarında: (Ədəbiyyatımıza dair araşdırmalar).- B.: Sabah, 1999.- 720 s..
5. Nəbiyev B. Kamalın təntənəsi.- B.: Yazıçı, 1981.- 406 s.. .
6.Nəbiyev B. Şəhriyar kəlamının vüsəti.- B.: Naftalan-pres, 1998.- 37s.
7. Nəbiyev B. Tənqid və ədəbi proses.- B.: Azərnəşr, 1976.- 185 s.

* * *

1. Akademik Bəkir Nəbiyev haqqında soraq kitabçası /Tərtib. ed. Aygün Hüseynzadə.- B.: Azərb. Ensiklopediyası NPR, 1999.- 206 s.

FİKRƏT QOCA – 70

Qocayev Fikrət Göyüş oğlu (Fikrət Qoca) 1935-ci il avqustun 25-də Azərbaycanın Ağdaş rayonunun Kotanarx kəndində anadan olmuşdur. Nizami adına orta məktəbi bitirdikdən sonra Bakı dəmir yol texnikumunda təhsil almışdır. 1959-64- cü illərdə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunda təhsil almışdır. 1987-ci ildən «Qobustan» incəsənət toplusunun baş redaktoru vəzifəsində calışır. Yaradıcılığa 1956-cı ildə Kirpidə çıxan «Baciqızı» adlı ilk şeri ilə başlamışdır. Onun şerləri bir sıra dünya xaqlarının dillərinə tərcümə olunmuşdur.

+ + + + + + + +

Ədəbiyyat

1. Qoca F. Secilmiş əsərləri: Şerlər və poemalarş.- B.: Azərnəşr, 1988.- 373 s.
2. Qoca F. Adi həqiqətlər: (Şerlər və poemalar).- B.: Azərnəşr. 2000.- 219 (1) s.
3. Qoca F. Ömürdən bir damla.- B.: Yazıcı, 1991.- 238 s.
4. Qoca F. Özümə məktub.- B.: Yazıçı, 1983.- 224 s.
5. Qoca F. Taleyin ağır taleyi: Roman.- B.: Gənclik, 1993.- 246 s.

* * *

1. Fikrət Qocanın «Şöhrət» ordeni ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin fərmanı// Azərbaycan.- 1995.- 27 iyul.
2. Əliyev H. Əməkdar incəsənət xadimi Fikrət Qoca: (60 illiyi münasibətilə təbriki)// Azərbaycan.- 1995.- 27 iyul.
3. Vahabzadə B. /Fikrət Qoca haqqında/ // Vahabzadə B. Sadəlikdə böyüklük.- B., 1978.- S. 132-136.
4. Yusifli V. Ürəyimi sərdim günəşə: /Fikrət Qoca haqqında/.- B., 1997.

SƏYAVUŞ ASLAN – 70

Görkəmli aktyor Səyavuş Məmmədağa oğlu Aslan 1935-ci il sentyabr ayının 5-də Bakı şəhərində anadan olmuşdur. İbtidai və orta təhsilini Bakı şəhərində 1№ li orta məktəbdə almışdır. 7-ci sinifi bitirdikdən sonra Bakı Dəmiryol texnikumuna daxil olmuşdur. Ağadadaş Qurbanovun dəmiryolçular klubunda təşkil etdiyi dram dərnəyinin üzvü olmuş, ilk rollarını da bu dərnəyin səhnəsində oynamışdır.

1957-59-cu illərdə A.Bakıxanov adına Quba Dövlət Dram Teatrında işləmişdir. 1959-cu ildən Azərbaycan Dövlət Musiqili Komediya Teatrının aktyoru olmuşdur. 1969-cu ildə Azərbaycan Dövlət İncəsənət İnsitutunu bitirmişdir.

1969-cu ildə Səyavuş Aslan Azərbaycan teatrı səhnəsində müxtəlif obrazlar yaratmışdır. Qulu («Əlli yaşında cavan», Ü.Hacıbəyov), Məhəmməd («Ulduz», S.Ələsgərov), Qoşun («Toy kimindir?», A.Məşədibəyov) və s.

Səyavuş Aslan həmçinin C.Cabbarlı adına «Azərbaycanfilm» in istehsal etdiyi bir sıra kinofilmlərdə də çəkilmişdir. "Romeo mənim qonşumdur», «Əhməd haradadır?», «Yol əhvalatı» filmlərində dolğun obrazlar yaratmışdır.

Səyavuş Aslan 1982-ci ildə Azərbaycanın Xalq artisti adına layiq görülmüşdür.

Hal-hazırda görkəmli aktyor Azərbaycan Dövlət Milli Dram Teatrında çalışır.

Səyavuş Aslan 1995-ci il dekabrın 9-da Azərbaücan Respublikasının prezidentinin fərmanı ilə «Şöhrət» ordeni ilə təltif olunmuşdur.

+ + + + + + + +

Ədəbiyyat

1. Aslan Səyavuş. Lütvəli Abdullayevə dublyor olmağım ən böyük uğurumdur: (Müəlliflə müsahibə) // Yeni Azərbaycan.- 1997.- 25 oktyabr.- S. 3.
2. Aslan Səyavuş. Mənə cib saatı bağışlayan : /S.Aslanla müsahibə/ //Yeni Müsavat.- 1997.- 9-11 sentyabr.
3. Aslan Səyavuş. Nəsh gündə avand söhbət: /Müəlliflə müsahibə/ // Azadlıq.- 1995.- 16 dekabr.- S. 8.

4. Aslan Səyavuş. «Rolu oynamazlar, rolu yaşayarlar» //Panorama.- 1998.- 5 sentyabr.- S. 4.
5. Aslan Səyavuş. Sənətdən doymaq olmaz: /Aktyor Məmməd-sadıq Nuriyev haqqında/ // Bakı.- 1974.- 8 aprel.

* * *

1. Rəhimli İlham. Səyavuş Aslan.- B.: İşıq, 1989.- 94 s.
2. Əliyev H. (Azərbaycan Respublikasının prezidenti) .Səyavuş Aslanın «Şöhrət» ordeni ilə təltif edilməsi haqqında:Azərbaycan Respublikası Prezidentinin fərmanı // Azərbaycan.- 1995.- 12 dekabr.- S. 5.
3. Əliyev H. (Azərbaycan Respublikasının prezidenti).Xalq artisti Səyavuş Aslanın anadan olmasının 60 illiyi münasibətilə təbriki // Azərbaycan.- 1995.- 12 dekabr.- S. 5.
4. Görkəmli səhnə ustasının yubleyi// Azərbaycan.- 1995.- 13 dekabr.
5. Şərif. Sonuncu gülüş karifeyi // Yeni Azərbaycan.- 2001.- 3 noyabr.- S. 16.

HƏBİBULLA ŞAXTAXTİNSKİ – 105

Görkəmli kimyaçı alim Həbibulla Baxışəli oğlu Şahtaxtinski 1900-ci il sentyabrın 9-da Naxçıvan MR-nın Şaxtaxtı kəndində anadan olmuşdur. O, 9 yaşında Yerevan klassik gimnaziyasına daxil olmuş, sonra II Bakı gimnaziyasına dəyişərək 1920-ci ildə oranı bitirmişdir.

Həbibulla Şahtaxtinski 1920-21-ci illərdə xalq Əmək Komissarlığının işçisi olmuşdur. 1921-ci ildə təhsilini davam etdirmək üçün Azərbaycan Dövlət Universitetinə ezam olunmuşdur. Həbibulla Şahtaxtinski eyni zamanda Azərbaycan Poltexnik İnsitutuna qəbul edilmişdir.

Həbibulla Şahtaxtinski 1926-cı ildə Universitetin tibb fakultəsini bitirmiş və həkim diplomu almışdır.

Həbibulla Şahtaxtinski 1930-cu ildə Azərbaycan Poltexnik İnsitutunun kimya- texnologiya fakultəsini bitirmişdir.

Analitik və qeyri üzvi kimya sahəsində kimyaçı alim 1940-cı ildən kimya elmləri namizədi, 1949-cu ildən kimya elmləri doktorudur. Həbibulla Şahtaxtinski 1950-ci ilin yanvar ayında professor adına layiq görülmüşdür.

Görkəmli alim 1967-ci ildən Azərbaycan Respublikası Elmlər Akademiyasının akademikidir. Həbibulla Şahtaxtinski 1974-cü ildə əməkdar elm xadimi adına layiq görülmüşdür.

İstedadlı alimin kimyaçı kadrların hazırlanmasında mühüm rolu olmuşdur.

Həbibulla Şahtaxtinski 1986-cı il sentyabrın 22-də vəfat etmişdir.

\+ \+ \+ \+ \+ \+ \+ \+

Ədəbiyyat

1. Şahtaxtinski H.B. Miqdari kimyəvi analiz.- B.: Azərneftnəşr, 1953.- 304 s .
2. Şahtaxtinski H.B. Arsenat metodu ilə stronsinu bir yerdə olduqda onların yodometrik təyini: (Xülasə) // Azərb. EA-nın məruzələri.- 1970.- № 6.- S. 31.
3. Şahtaxtinski H.B. və başq. Dəmir iştirak etdikdə strosinunun arsenato-yodometrik təyini: Xülasə // Azərbaycan Kimya jurnalı.-1969.- №2.-S. 114-115.

4. Şahtaxtinski H.B. Dənəvərləşdirilmiş barıt konsentratının "qaynar" təbəqədə müxtəlif əlavələrin iştirakı ilə reduksiyası //Azərb. EA-nın məruzələri.- 1973.- № 5.-S. 23.
5. Şahtaxtinski H.B., R.H.Yusubov., E.İbadzadə. Kükürd birləşmələrinin və sərbəst karqonun dəmir alminiumun katalizatorlarının fəallığına təsiri // Azərbaycan kimya jurnalı.- 1973.- №1.- S. 104.
6. Şahtaxtinski H.B., Şəkərov H.Ə. və başq. Filizçay polimetal filizindən alınan qurğuşun konsentratının dənəvərləşdirilməsi prossesinin tədqiqi // Azərb. EA-nın məruzələri.- 1978.- №7.- S. 47.
7. Həbibulla Baxışəli oğlu Şahtaxtinski :(Kimya elmləri doktoru, professor Həbibulla Şahtaxtinskinin anadan olmasının 75 illiyi münasibətilə) // Azərbaycan kimya jurnalı.-1975.-№1.-S. 138-140.

* * *

1. Görkəmli alimin yubileyi: /Həbibulla Şahtaxtinskinin 100 illiyi münasibətilə keçirilən yığıncaq haqqında // Azərbaycan.- 2001.- 4 fevral.- S. 3.
2.Həbibulla Şahtaxtinskinin anadan olmasının 75 illiyi münasibətilə// Azərbaycan kimya jurnalı.- 1975.- №1.- S. 138-140.
3. Xəlilov Əjdər. Azərbaycan kimyaçılıranının ağsaqqalı: /Həbibulla Şahtaxtinskinin anadan olmasının 80 illiyi münasibətilə/ // Azərbaycan müəllimi.- 1981.- 10 aprel.

ÜZEYİR HACIBƏYOV - 120

Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyov 1885-ci il sentyabr ayının 18-də Şuşa qəzasının Ağcabədi kəndində anadan olmuşdur. Ü.Hacıbəyov ibtidai təhsilini Şuşada ikiillik məktəbdə almışdır.

Üzeyir Hacıbəyov görkəmli sovet bəstəkarı, Azərbaycan musiqi mədəniyyətinin klassikidir. Onun yaradıcılığı milli musiqi sənəti tarixində əsas rol oynamışdır. Klassik operanın – Azərbaycan musiqi sənətinin şah əsəri «Koroğlu»nun müəllifi olan Üzeyir Hacıbəyov milli mədəniyyətin inkişafında həm də ictimai xadim, alim, folklorçu pedaqoq kimi rol oynamışdır.

Üzeyir Hacıbəyov öz yaradıcılığında novator kimi çıxış edərək milli musiqi mədəniyyətinin inkişafında dönüş yaratdı. O, həyatın mənasını xalqa xidmət etməkdə, doğma incəsənəti inkişaf etdirməkdə görmüşdür. Hacıbəyov böyük istedad sahibi olmaqla yanaşı, həmçinin vətəndaş və vətənpərvər, ideyaları təsdiq edən, ictimai fəaliyyət aparan böyük sənətkarlardan biri idi.

Hacıbəyovun yaratdığı kütləvi mahnılar xüsusilə geniş yayılmışdı. Buna «Qara gözlər», «Vətən ordusu», «Ananın oğluna nəsihəti», «Döyüşçülər marşı», «Şəfqət bacısı», «Yaxşı yol», «Mazut» mahnılarını misal göstərmək olar.

Üzeyir Hacıbəyovun əsərləri çox millətli musiqi mədəniyyəti xəzinəsində şəxsi yer tutur. Buna misal olaraq «Vətən və cəbhə» kantatası, «Cəngi», «Koroğlu» operası, «Sənsiz» və «Sevgili canan» romansları və s. misal göstərmək olar. Bəstəkar müxtəlif musiqi janrlarında gözəl əsərlər yaradaraq professional musiqi üslubunun təməlini qoymuşdur. Onun Azərbaycan incəsənətinin qızıl fonduna daxil olmuş «Koroğlu» operası, musiqili komediyaları, romans-qəzəlləri, mahnıları və instrumental əsərləri klassik nümunələrə çevrilmişdir. Onun musiqi sənəti sahəsində yaratdığı ənənələri respublikamızın bəstəkarları ləyaqətlə davam etdirmiş, indi də davam etdirirlər.

Dahi bəstəkar 1948-ci il noyabrın 13-də Bakı şəhərində vəfat etmişdir.

\+ \+ \+ \+ \+ \+ \+ \+

Ədəbiyyat

1. Hacıbəyov Ü.Seçilmiş əsərləri. -B.: Yazıçı, 1985.- 653 s. .

2. Hacıbəyov Ü.Azərbaycan xalq musiqisinin əsasları.- B., 1985. - 154 s.
3. Hacıbəyov Ü. Leyli və Məcnun: 6 pərdəli opera (Libretto).- B., 1941.- 6 s.
4. Hacıbəyov Ü.Musiqili komediyalar: (Librettolar).- B., 1959.- 138 s.
5. Hacıbəyov Ü. Andranik məsələsi: (İxtisarla) //Azərbaycan.- 1998.- 15 dek.- №65.
6. Hacıbəyov Ü.Azərbaycan marşı: (Sözləri və notu ilə birlikdə) //Aydınlıq.- 1991.- 11 okt.- S. 4.
7. Hacıbəyov Ü.Bir yaş.: (ADK-nin bir illiyi münasibətilə) //Azərbaycan.- 1994.- 6 dek. (Azərbaycan.- 1919.- 28 may.- № 190.)

* * *

1. Abdullayev A. Üzeyir Hacıbəyov və Azərbaycan dili. // Ədəbiyyat qəzeti.- 2002.- 13 sent.- S. 1-2.
2. Ağamirzəqızı X. Milli musiqimizin təəssübkeşi: (Üzeyir Hacıbəyov haqqında // Respublika.- 2002.- 18 sent.- S. 5.
3. Əsədzadə Ü. Üzeyir bəy Hacıbəyli: 85 il əvvəl parlament müxbiri kimi // Yeni Azərbaycan.- 2003.- 29 mart.- S. 8.
4. Veysəlli N. Böyük bəstəkar haqqında: /Retro düşüncələr/: (Ü.Hacıbəyov haqqında) //Qobustan.- 2000.- № 3 .- S. 6-8.

MÜSLÜM MAQOMAYEV – 120

Əbdül Müslüm Məhəmməd oğlu Maqomayev 1885-ci il sentyabrın 18-də Qroznı şəhərində dəmirçi ailəsində anadan olmuşdur. Müslüm Maqomayev məşhur Azərbaycan bəstəkarı və görkəmli musiqiçi, ictimai xadimdir. O, musiqi sənətinin inkişafında böyük rol oynamışdır.

Müslüm Maqomayevin «Şah İsmayıl» və «Nərgiz» operaları Azərbaycan musiqili teatrının repetuarına möhkəm daxil olmuş və orada fəxri yer tutmuşdur. Bəstəkarın musiqisi ifadə məzmunu və səmimiliyi ilə emosional dolğunluğu ilə dinləyicini valeh edir. Məhz buna görə də onun musiqisi xalqın həyatına möhkəm daxil olmuş, bəstəkara ən geniş xalq kütləsinin məhəbbətini qazandırmışdır.

Bəstəkarın «Yaz», «Tarla», «Bizim kənd», «Neft» və s. kimi mahnıları, «Azərbaycan çöllərində», «Ceyran» rapsodiyaları, «Turacı», «Əsgərani», «Ləzginka» rəqsləri, «Şələlə», «Rəngi-Şüştər», «Təsnifi-şur», pyesləri və s. yazmışdır.

M.Maqomayev 1937-ci ildə ağır xəstələnmiş, Nalçik şəhərində vəfat etmiş, Bakıda dəfn olunmuşdur.

\+ \+ \+ \+ \+ \+ \+ \+

Ədəbiyyat

1.Maqomayev M. Azərbaycan el nəğmələri.- B., 1985.

***

1. İsmayılov Q. Müslüs Maqomayev.- B.: Yazıçı.- 1985.- 64 s.
2. Qasımova S. M.Maqomayevin «Nərgiz» operası.- B., 1967.- 46 s.
3. Hüseynova A. «Nərgizin taleyi» /M.Maqomayevin eyni adlı operası haqqında/ // Azərbaycan qadını.- 1992.- № 1-2.- S. 21.
4.Məlikov A. /Müslüm Maqomayev 100/ // Ədəb və incəsənət.- 1986.- 23 may.- S. 5.
5. Rzayeva Vəfa. Hər addımda çətinliklərlə qarşılaşan bəstəkar: /Müslüm Maqomayev haqqında/ // Yeni Azərbaycan.- 1996.- 12 mart.- S. 6.
6.Səfərova S. M.Maqomayev və Azərbaycan xalq rəqsləri //Mədəniyyət.- 1996.- 15 dek.- S. 2.

ƏLİAĞA VAHİD – 110

Əliağa Vahid (Əliağa Məmmədqulu oğlu İsgəndərov) 1895-ci il oktyabrın 5-də Bakıda anadan olub. Əvvəl mollaxanada oxumağa başlamış, sonra ehtiyac üzündən təhsilini yarımçıq qoyub xarratlıq etmişdir. Gənc yaşlarında Bakıdakı «Məcmə üşşüəra» ədəbi məclisində iştirak etmiş, İmaməliyev Münira və başqa şairlərin təsiri ilə lirik şerlər yazmışdır. Satirik şerlərində zülm və haqsızlığı ifşa etmişdir. «Tamahın nəticəsi» ilk satirik şerlər kitabı 1961-ci ildə nəşr olunmuşdur Füzuli ənənələrinin davamçısı olan Vahid müasir Azərbaycan ədəbiyyatında qəzəl janrının görkəmli nümayəndəsidir. Qəzəllərin poetik dilinin sadəliyi xanəndələrin repertuarında mühüm yer tutur. Nizami, Xəqani, Füzuli, Nəvai və başqalarının qəzəllərini Azərbaycan dilinə tərcümə etmişdir. O, 1965-ci il oktyabrın 30-da Bakıda vəfat etmişdir.

+ + + + + + + +

Ədəbiyyat

1. Vahid Ə. Secilmiş əsərləri: 2 cilddə.- B.: Azərnəşr, 1975.
   I cild. Satirik şerlər.- 1975.- 295 s.
   II cild. Qəzəllər.- 1975.- 515 s.
2. Vahid Ə. Seçilmiş əsərləri.- B.: Yazıçı, 1982.- 520 s.
3. Vahid Ə. Aforizmlər. Epitafiyalar.- B.: Azərnəşr, «Naşir», 1990.- 72 s.
4. Vahid Ə. Qəzəllər. - B.: Şərq-qərb, 1993.- 359 s.

* * *

1. Əliağa Vahid haqqında bildiklərimiz.- B.: Şərq-qərb, 1995.- 238 s.
2. Əlizadə Lalə. Böyük Füzulinin yadigarı: (Ə.Vahid haqqında).- B.: Ozan, 1996.- 30 (2) s.
3. Balasadıq. "Vahid" poeması: (Bir parça)// Azərbaycan.- 1995.- 8 iyun.
4. Qurbansoy F. Qəzəl dünyamızın sonbeşiyi: Vahid – 100. // Bakının səsi.- 1995.- 1 mart.
5. Nuroğlu M. Vətənin, xalqın aşiqi: Ə.Vahid – 90.// Ədəbiyyat və incəsənət.- 1985.- 22 fevral.- S. 7.

SEYİD ƏZİM ŞİRVANİ - 170

S.Ə.Şirvani 1835-ci il oktyabr ayının 7-də Şamaxıda anadan olub. O, ilk təhsilini ana babası Molla Hüseynin yanında Dağıstanda ərəb, fars dilində almışdır. 1853-cü ildə Şamaxıya qayıdan Seyid Əzim 1855-cü ildə Bağdada getmiş, bir müddət burada, sonra isə Şamda dini təhsil almışdır. İkinci dəfə şərq ölkələrinə gedən S.Ə.Şirvani Misirdə olmuş, Qahirədə alim və şairlərlə görüşmüşdür. 1869-70-ci illərdə Şamaxıda yeni üsulla məktəb açmışdır.

S.Ə.Şirvani 1855-ci ildə yaradıcılığına başlamışdır. Şair «Müctəhidin təhsildən qayıtması», «Köpəyə ehsan», «Allaha rüşvət», «Yerdəkilərin göyə şikayətə getmələri» şerlərində xalqı din xadimlərinin hiylələrinə uymamağa, ayıq-sayıq olmağa çağırırdı.

S.Ə.Şirvaninin yaradıcılığı Azərbaycan şerinin inkişafına böyük təsir göstərmişdir. Ə.Cəfərzadənin «Aləmdə səsim var mənim» romanı S.Ə.Şirvaniyə həsr olunmuşdur. S.Ə.Şirvaninin adına küçə, məktəb və kitabxana var.

+ + + + + + + +

Ədəbiyyat

1. S.Ə.Şirvani. Əsərləri .- C.1-3.- B., 1967-1974.
   1- ci cild. 1967.- 741 s.
   2- ci cild.1969.-650 s.
   3-cü cild.1974.-499 s.
2. S.Ə.Şirvani.Seçilmiş əsərləri.-B.:Maarif,2002.-294s.

* * *

1. Hüseynov S. Ə.Şirvaninin yaradıcılıq yolu.- B., 1977.
2. Qasımzadə F. S.Ə. Şirvani // XX əsr. Azərbaycan ədəbiyyatı tarixi.-B., 1974.
3. Məmmədov K. S.Ə./ Şirvani haqqında/ // XIX əsr Azərbaycan şerində satira - B., 1975.
4. Mirbağırov K. S.Ə.Şirvani.- B., 1959.
5. S.Ə.Şirvani. Azərbaycan ədəbiyyatı tarixi: 3 cilddə.- C. 2.- B., 1960.

HUSEUN SEYİDZADƏ - 95

Hüseyn Əli oğlu Seyidzadə 1910-cu il oktyabrın 15-də İrəvan şəhərində anadan olmuşdur.

1925-ci ildə on beş yaşlı Hüseyn bir parça çörəyi qazanmaq üçün oxumağın daşını atmağa məcbur oldu. İmkanı olanda arasıra kinoya gedirdi. Ən çox yuxuda gördüyü, kino çəkmək idi. 1930-cu ildən Hüseyn Seyidzadə Bakı kinofabrikində rejissor köməkçisi vəzifəsinə qəbul olundu.

O, yaradıcılığa teatr aktyoru kimi başlamışdır. 1931-ci ildə Moskva Ümumittifaq Dövlət Kinomatoqrafiya İnstitutunun rejissorluq fakültəsinə daxil olmuşdur. 1930-cu ildə «Böyük dahi filmində Stalin rolunu Azərbaycan dilində səsləndirmişdir. 1931-ci ildə "İlk komsomol dəstəsi" filmində neftçi obrazi yaratmışdır. Bakı İşçi Teatırının rejissoru və aktyoru, sonralar görkəmli rejissor olmuşdur.

Görkəmli H.Seyidzadə Moskvaya qayıdır, Bədaye teatrında səhnə sənətindən dərs deməyə başlayır. 1953-cü ildə Bakıya qayıdan H.Seyidzadə, 1954-cü ildə ilk müstəqil işi olan "Doğma xalqıma" sənədli filmini çəkir. 1956-cı ildə rejissor Azərbaycan kino sənətinin inçisinə çevrilir, "O olmasın bu olsun" bədii filmini çəkir. Sərbəst və müstəqil işləməyi sevən H.Seyidzadə maneələrlə qarşılaşır. 1965-ci ilə kimi onun kino yaradıcılığında bir durğunluq yaranır. 1965-ci ildə «Yenilməz batalyon». 1969-cu ildə «Dəli Kür» filmlərini çəkir. 1970-ci ildə Azərbaycan SSR Əməkdar incəsənət xadimi adına layiq görülür. Rejissora qarşı haqsız hücumlar onun yaradıcılığında da uzun müddətli durğunluğa səbəb olur. Nəhayət, 1979-cu ildə «Qaynana» filmini çəkir. Bu film görkəmli rejissorun son yaradıcılıq işi olur. Hüseyn Seyidzadənin keşməkeşlərlə dolu olan həyatı 1979-cu ildə sona yetir.

+ + + + + + + +

Ədəbiyyat

1. Əbdülrəhmanlı N., Teymurov M. Acı tale: /Hüseyn Seyidzadə - 80 / //Qobustan.- 1991.- №2. -S. 35-40.

2. Əbdülrəhmanlı N.,Teymurov M. Sənətkar taleyinin ağrıları...: /Mərhum kino rejissorumuz Hüseyn Seyidzadə haqqında/ // Yeni filmlər.- 1990.- № 7.- S. 3-13.
3. Əbdülrəhmanlı Nəriman. Sənət kjorifeyləri: Bütün qadağaların fövqündə: (Kinorejissor Hüseyn Seyidzadə haqqında) //Azərbaycan. -2003. -12 yanvar .- S.7.
4. Əlibəyov Cəmil. Sənətkar taleyi: (Mərhum kino rejissoru Hüseyn Seyidzadənin yaradıcılığı haqqında) //Mədəniyyət.- 1993.- 8 yanvar.- S.2.
5. Kazımzadə Aqşin. «Ayna», «Qaynana» ... bir də bayram şənlikləri: (Kinorejissor Hüseyn Seyidzadə haqqında) // Qobustan 2001.- № 2.- S. 27-31.

SÜLEYMAN SANİ AXUNDOV - 130

Nasir, dramaturq, tərcüməçi Axundov Süleyman Rzaqulubəy oğlu 1875-ci il oktyabr ayının 23-də Azərbaycanın Şuşa şəhərində yoxsullaşmış bəy ailəsində anadan olmuşdur. Körpə ikən atasını itirdiyindən dayısı maarif xadimi Səfərəlibəy Vəlibəyovun himayəsində böyümüşdür. İbtidai təhsilini aldıqdan sonra Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasını bitirmişdir. O, pedoqoji fəaliyyətə Bakıda, rus-tatar məktəbində başlamışdır. Bir müddət müəllimlik etmiş, sonra dördüncü rus-tatar məktəbinin müdiri olmuşdur. Elə bu dövrdə ədəbi yaradıcılığa başlayan Süleyman Sani Axundov ilk əsərləri olan - «Tamahkor», «Dibdan bəy», «Türk birliyi», «Kavə», pyeslərini, «Yuxu», «Qonaqlıq», «Qorxulu nağıllar» hekayələrini yazmışdır. Əsərlərini «Süleyman bəy Axundov», «Qərib», «S», «Axundzadə S.B», «Süleyman Sani», «Axundov S.S.», «S. Axundov» imzaları ilə çap etdirmişdir.

Böyük sənətkar Azərbaycanda Sovet hakimiyyəti qurulduqda Qarabağ, Kürdüstan və Zəngəzurda inqilab komitələrində məsul işlərdə çalışmışdır. O, məktəb, uşaq evi, klub, qiraətxana və başqa mədəni-maarif ocaqlarının açılmasında ciddi fəaliyyət göstərmişdir. 1923-24-cü illərdə Bakıda Maarif şöbəsinin müfəttişi, məktəb müdiri işləmişdir. «Yeni türk (Azərbaycan) əlifbası» dərsliyini «Azərbaycan teatr tarixi» kitabçasının yaradılmasında iştirak etmişdir. Bu dövrdə yaranan «Tənqid-təbliğ» teatrı onun «Çərxi-fələk» pyesi ilə açıldı. Axundovun «Laçın yuvası» pyesi dövlət müsabiqəsində birinci dərəcəli mükafata layiq görüldü. Azərbaycan ədib və şairlər ittifaqının sədri (1922) dəfələrlə Bakı Sovetinin və Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin üzvü seçilmişdir. O, 1934-cü ildə S.Axundov – Yazıçılar Birliyinin üzvü seçilmişdir. Pedoqoji fəaliyyətinə görə Əmək Qəhrəmanı fəxri adını almışdır. Süleyman Sani Axundov 1939-cu il martın 29-da Bakıda vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur. Bir sıra küçə, meydan, məktəb və mədəni-maarif müəssisələri onun adını daşıyır.

+ + + +

Ədəbiyyat

+ + + +

1. Axundov S.S. Əsərləri.- B.: Azərnəşr, 1936. - 654 s.
2. Axundov S.S. Qaraca qız. – B.: Azərnəşr, 1943.- 36 s.
3. Axundov S.S. Qorxulu nağıllar.- B.: Uşaqkənnəşr, 1947.- 120 s.
4. Axundov S.S. Laçın yuvası.- B.: Uşaqgəncnəşr, 1958.- 28 s.

VAHİD ƏZİZ - 60

Vahid Əziz oğlu Cəfərov 1945-ci il noyabr ayının 23-də Ermənistanin Əzizbəyov rayonunda anadan olub. 1951-ci ildə Azərbaycanın Tərtər rayonuna köcüb. 1952-ci ildə orta məktəbin 1-ci sinfinə gedib. Müəyyən səbəblərə görə 9-cu sinfə qədər Ağdərə rayonunda təhsil alıb. 10-cu sinfi isə yenidən Tərtər rayonunda davam etdirib. 1963-cü ildə orta məktəbi qutarıb. Bir müddət Əlibayramli şəhərindəki «Şirvan-neft» neft mədənində təmirçi işləyib. Sonralar Azərbaycan Politexnik İnstitutunun avtomatlaşdırma və itehsalat proseslərinin yüngül kimya və toxuculuq ixtisası fakültəsini bitirib.

1971-76-ci illərdə Xəbərlər Mətbuat Agentliyinin Azərbaycan xüsusi müxbiri vəzifəsində calişib. 1977-ci ilin yanvarında isə Partiya Komitəsində təşkilatci vəzifəsində işləyib. 1974-cü ildən isə Sov. İKP-nın üzvü olub.

1977-1982-ci illərdə isə Bakı Şəhər Partiya Komitəsində işləyib. 1982-ci ildə Azərbaycan İKP Mərkəzi Komitəsində təlimatçı, sonra Təbliğat şobəsində mətbuat bolməsinin müdiri işləyib. 1988-ci illərdə Mətbuat komitəsinin sədr müavini vəzifəsində çalışıb. 1991-1997-ci illərdə Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin katibi işləyib.

1998-ci ildə Bakı Şəhər İcra Hakimiyyətində Şəhər tərtibatı və reklamlar şöbəsində «Azərbaycan dilindəki mətnlərə nəzarət» bölməsinin müdiri vəzifəsində işləyib.

Yaradıcılığa 1966-cı ildə başlayıb. İlk şerləri 1966-cı ildə Politexnik İnstitutunun «Politexnik» qəzetində çap olunub. Respublikaəhəmiyyətli mətbuata isə Rəsul Rzanın təqdimatı ilə gəlib. İlk şerlər kitabı 1969-cu ildə «Mən küləyi görürəm» adı altında nəşr olunub. Şerləri dövrü mətbuatda müntəzəm olaraq 1996-cı ildən nəşr olunmağa başlayıb. 1988-ci ilin sonunda Azərbaycan SSRİ-nin Ali Sovetinin fərmanı ilə Dağlıq Qarabağ və ətraf rayonların respublika təşkilatı komitəsi yaradıldı və Vahid Əziz bu komitənin 6 üzvündən biri idi. O, Qarabağ Müharibəsi Veteranıdır.

Onun şerləri Türkiyədə, Almaniyada çap olunub. Həmçinin ingilis, alman, yapon, gürcü dillərində çap olunub. Onun şerlərinə nəğmələr qoşulub.

1999-cu ildə musiqisi E.Mansurov tərəfindən yazilmış «Əzizim» mahnısı ABŞ-ın Natsa Kosmik təqiqatlar agentliyinin diqqətini cəlb edib və radio dalğalar vasitəsi ilə başqa planetlərə ötürülmüşdür.

Dağlıq Qarabağdakı faliyyətinə görə SSRİ-Milis əlaçısı 2-ci dərəcəli döş nişanı ilə təltif olunub.

Evlidir. 1 qızı,1oğlu var.

\+ + + + + + + +

Ədəbiyyat

1.Vahid Əziz. Aylı pəncərə: (Şerlər)/ Red-ru. İ.Tapdıq.- B.: Gənclik, 1974.- 63 s.

2. Vahid Əziz. Dözmək olmur: (Şerlər və poemalar).- B.: Gənclik, 1997.- 207 s.

3. Vahid Əziz. Əllərimin kölgəsi: (Şerlər və poemalar).- B.: Gənclik, 1985.- 231 s.

4. Vahid Əziz. İllərin bahari: (Şerlər və poemalar)/ Red-ru. Muzəffər Şükür.- B.: Yazıçı, 1980.- 136 s.

5. Vahid Əziz. Aydan gəlmiş adam: (Şerlər)// Ulduz.- 1972.- №2.- S. 30.

6. Vahid Əziz. Bahar. (Şer)// Azərbaycan.- 1974.- №3.- S. 32.

7. Vahid Əziz. Bayatılar// Ədəbiyyat və incəsənət.- 1981.- 8 may.- S. 4.

8. Vahid Əziz. Bayatılar; Qara qiz; Gunlər illər ; Sazım: (Şerlər)// Ulduz.- 1997.- №3.- S. 56.

FƏTƏLİXAN XOYSKİ – 130

Öz dövrünün ictimai-siyasi və dövlət xadimi Fətəlixan İskəndər oğlu Xoyski 1875- ci il noyabr ayının 25-də Şəki şəhərində anadan olmuşdur. Xoyskilər nəslindən görkəmli sərkərdələr, dövlət xadimləri və çoxlu ziyalı çıxmışdır. Bunlardan biri də Fətəlixan Xoyskidir.

Dövlət xadimi, görkəmli şəxsiyyət Fətəlixan Xoyski 1897-ci ildə Moskva Universitetinin hüquq fakültəsini bitirdikdən sonra 1907-ci ilədək Yelizavetpol, Kutaisi, Yekaterinador dairə məhkəmələrində işləmişdir. 1907-ci ildə Dövlət Dumasına deputat seçilmişdir. Fətəlixan Xoyski Dumaya millət vəkili seçildiyi vaxt Yekaterinador dairə məhkəməsində prokuror müavini işləyirdi. O, dumanın altı komisiyasının və iki şöbəsinin üzvü idi. 1907-1913-cü illərdə isə Bakı dairə məhkəmələrində vəkil işləmişdir. 1917-ci ilin noyabrından 1918-ci ilin mayına qədər Zaqafqaziya Komissarlığının xalq maarif komissarı olmuş, Zaqafqaziya seyminin və müvəqqəti Azərbaycan Milli Şurasının üzvü seçilmişdir. 1918-ci ilin mayından 1919-cu il martın sonuna kimi Müsavat hökumətində Nazirlər Şurasının sədri, eyni zamanda daxili işlər, ədliyyə və xarici işlər naziri işləmiş, Azərbaycan parlamentinin üzvü olmuşdur.

Azərbaycan tarixində bir sıra xidmətləri olmuş Fətəlixan xoyskinin ən diqqətəlayiq xidmətlərindən biri də Bakı Dövlət Universitetinin yaranma təşəbbüsünün ona məxsus olmasıdır. Bundan başqa, məktəblərin milliləşdirilməsinə başlanmış və yeni seminariyalar açılmışdır.

Təxminən on ay ərzində üç dəfə Nazirlər Şurasının sədri olmuş Fətəlixan Xoyski Azərbaycanda dövlət orqanizminin yaranması üçün çalışmışdır. Azərbaycan Demokratik Respublikasının beynəlxalq aləmdə və xarici dövlətlər arasında tanınmasında Fətəlixan Xoyskinin mühüm xidmətləri vardır.

1920-ci il aprelin 27-də Sovet Rusiyasının XI Ordusunun Bakıya yaxınlaşdığı xəbəri alındı. Azərbaycan Respublikası işğal olunduqdan sonra Fətəlixan Xoyski ailəsi ilə birlikdə zirehli qatarla Tiflisə getdi. O, Azərbaycanın tanınmış dövlət xadimlərindən Xəlilbəy Xasməmmədovla birlikdə 1918-ci il may ayının 5-də Tiflisin İrəvan meydanından keçərkən erməni terrorçularından ərzurumlu Aram Erkayan və Misaq Qriqoryan

tərəfindən atəşə tutuldu və Fətəlixan Xoyski aldığı ağır yaradan hadisə yerindəcə vəfat etdi.

✦ ✦ ✦ ✦ ✦ ✦ ✦ ✦

Ədəbiyyat

1. Fətəlixan Xoyskinin nitqi: /Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinin birinci iclasında/ //Azərbaycan.- 1994.- 6 oktyabr.- S.5

* * *

1. Fətəlixan Xoyskinin anadan olmasının 120 illiyinin qeyd edilməsi haqqında :Azərbaycan Respublikası prezidentinin sərəncamı //Azərbaycan.- 1995.- 19 dekabr.
2. Fətəlixan Xoyski. Həyat və fəaliyyəti: (Sənəd və materiallar).- B.: Azərbaycan, 1998.-151s.
3. Bünyadov Z., Əliyev M. Fətəlixan Xoyski.- B., 1997.
4. Fətəlixan Xoyski: (Azərbaycanın ilk baş naziri, istiqlal mücahidi haqqında) // Xalq qəzeti.-2002.-25 may.- S.3
5. Rzayev Ataxan. Azərbaycan Cümhuriyyətinin ilk sədri: /F.Xoyskinin anadan olmasının 120 illiyi qarşısında/ // Xalq qəzeti.- 1996.- 31 yanvar.

RƏŞİD BEHBUDOV – 90

Görkəmli Azərbaycan müğənnisi, xalq artisti, Dövlət mükafatı laureatı Rəşid Məcid oğlu Behbudov 1915-ci il dekabr ayının 14-də Tiflis şəhərində anadan olmuşdur. İfaçılıq fəaliyyətinə Tiflisdə başlamışdır. 1938-44-cü illərdə Yerevan filarmoniyasının solisti olmuş, həmçinin Ermənistan Dövlət Opera və Balet Teatrında çıxış etmişdir. 1946-56-cı illərdə Azərbaycan Dövlət Filarmoniyasının, 1953-60-cı illərdə, M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti, 1957-59-cu illərdə Azərbaycan Dövlət Konsert Ansamblının təşkilatçısı və rəhbəri olmuşdur. 1966-cı ildən özünün təşkil etdiyi Azərbaycan Dövlət Mahnı Teatrının solisti və bədii rəhbəri olmuşdur.ı

Zəngin çalarlı müstəsna gözəl səsə malik olan Rəşid Behbudov sovet vokal məktəbinin görkəmli nümayəndələrindəndir. Azərbaycan xalq mahnılarının, Azərbaycan bəstəkarlarının vokal əsərlərinin xarici ölkələrdə populyarlaşmasında Rəşid Behbudovun xidmətləri böyükdür.

Rəşid Behbudovun repertuarına dünya xalqlarının, eləcə də özünün mahnıları daxildir. Rəşid Behbudov 50-dən artıq xalqın mahnısını həmin xalqların dilində ifa edir. Onun ifasındakı Balaş partiyası Azərbaycan vokal sənəti tarixində əhəmiyyətli yer tutur.

«Arşın mal alan» filmində yaratdığı Əsgər obrazı Rəşidə geniş şöhrət qazandırmışdır. Albaniya, Bolqarıstan, Belçika, Efiopiya, Hindistan, Çin, Finlandiya, İraq, İran, Türkiyə və s. ölkələrdə qastrollarda olmuşdur.

+ + + + + + + +

Ədəbiyyat

1. Behbudov R. Mahnılarımız ərmağandırğ //Bakı.-1980.-3 iyun.
2. BehbudovR. Nəğmə dostluq körpüsüdür: («Mahnı teatrı»nın İngiltərəyə qastrolu haqqında təəssüratı) //Kommunist.- 1978.- 12 dek.
3. BehbudovR. Nəğmələr qatar-qatar //Kommunist.- 1980.- 4 iyun.
4. BehbudovR. Onun sənət sehri: Üzeyir Hacıbəyov –100 //Ədəbiyyat və incəsənət.- 1985.- 4 oktyabr.- S. 4.

5. BehbudovR. Sənətin gücü // Ədəbiyyat və incəsənət.- 1986.- 5 sentyabr.- S. 3.
6. Behbudov R. Səni tərənnüm edirəm, doğma Azərbaycanım: (Azərbaycan Dövlət Mahnı Teatrı haqqında).- Bakı.- 1969.- 28 aprel.

* * *

1. Abasova E. Rəşid Behbudov.- B., 1965.- 20 s.
2. Abbasov İ. Dahi sənətkarın xatirəsi // Xalq qəzeti.- 2000.- 16 dekabr.- S.6.
3. Ağayev Ə. Sənətimizin günəşi // Respublika.- 1999.- 10 fevral.
4. Almaz Ü. Oxuyur Rəşid Behbudov// Xalq qəzeti.- 2004.- 11 iyun.- S.7
5. Qabilqızı S. Xatirə var, unudulmur // Azadlıq.- 1998.- 15 dekabr.

Osman Abdulla oğlu Qurbanov (Osman Sarıvəlli) 1905-ci il dekabr ayının 17-də Qazax rayonun ikinci Şıxlı (Sarıvəli) kəndində anadan olmuşdur. Orta təhsilini Qazax müəllimlər seminariyasında aldıqdan sonra Göycayın Qaraməryam və Bığır kənd məktəblərində müəllimlik etmişdir. İkinci Moskva Dövlət Universitetinin filoligiya fakültəsində təhsilini davam etdirmişdir. Bakı pedeqoji texnikumunda müəllim, Bakı teatr texnikumunda müdir, Təbrizdə çıxan «Vətən yolunda» qəzeti redaksiyasında məsul katib, Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda müdir müavini, Ədəbiyyat qəzetinin redaktoru Uşaqgənc nəşrdə redaktor, Azərbaycan Sovet Yazıcıları İnistitutunda şer üzrə məsləhətçi olmuşdur. Eyni zamanda Azərbaycan Yazıcılar İtifaqında uzun müddət ilk partiya təşkilatının katibi kimi ictimai fəaliyyət göstərmişdir. Ümumittifaq ədəbiyyat tədbirlərində ölkənin müxtəlif yerlərində olmuşdur. Xalq şairi ilk dəfə olaraq 1934-cü ildə «Dəmir sətrlərim» adlı şerlər kitabını nəşr etdirmişdir. Şair fədakar insanlara, xaqlar dostluğuna həsr olunmuş bir cox əsərlər yazmışdır. «Ömrün keçən günləri» (1964), «Sabahı yaradanlar» (1970), «Hər kim yüz il yaşamazsa» (1976), «Mən sabaha gedirəm» (1979) və s. kitabları başlıca mövzularındandır.

Osman Sarıvəllinin bir cox kitabları, ədəbi tənqidi məqalələri, tərcümələri, mənzum pyesləri, poemaları var. Onun bir sıra əsərləri xarici dillərə tərcümə olunmuşdur. Eyni zamanda, özü də poetik tərcümələr etmişdir.

Şair 1990-cı il iyulun 3-də Bakı şəhərində vəfat etmişdir.

+ + + + + + + +

Ədəbiyyat

1. Sarıvəlli Osman. Secilmiş əsərləri: 2 cilddə.- B.: Azərnəşr, 1986-1987.

I cild. Şerlər. 1986.- 448 s.

II cild. 1987.- 445 s.

2. Sarıvəlli Osman. Bizim babalar, bizim nəvələr: Şerlər və poemalar.- B.: Gənclik, 1980.- 84 s.

3. Sarıvəlli Osman. Kür qırağında: Şerlər və mənzum dram.-B.: Yazıçı, 1987.- 348 s.

4. Sarıvəlli Osman. Mən sabaha gedirəm.- B.: Yazıçı, 1979.-232 s.

* * *

1. BabanlıVidadi. Osman Sarıvəlli mənim yaddaşımda. (O.Sarıvəlli-90)// Azərbaycan.- 1995.- 27 dek.

2. Həsənzadə Nəriman. Paklaşıram şer üstə: (O.Sarıvəllinin 90 illiyinə şer)// Azərbaycan.- 1995.- 27 dek.

3. Şükür Müzəffər Məchul. Gözəl insan: (O.Sarıvəllinin yaradıcılığı haqqında)// Ədəbiyyat qəzeti.- 1992.- 28 fevr.- S. 7.

4. Vəliyev Süleyman. Osman yüz il yaşamadı, lakin təqsir onun özündə deyildi...: (O.Sarıvəlli ilə bağlı xatirə)// Respublika.- 1994.- 20 sent.

HƏSƏN SEYİDBƏYLİ - 80

Azərbaycanın görkəmli kinodramaturqu, rejissoru, naşiri Həsən Mehdi Seyidbəyli 1920-ci il dekabrın 22-də Bakı şəhərində anadan olmuşdur. O, Bakının 132 №-li şəhər orta məktəbini bitirmişdir. Kiçik yaşlarından onda şerə, sənətə sonsuz həvəs oyanmışdı. 1939-cu ildə Moskva Kino İnstitutunun rejissorluq fakultəsinə daxil olmuşdur. 1943-cü ildə oranı bitirmişdir.

1960-cı ildə Əməkdar İncəsənət xadimi, 1976-cı ildə xalq artisti adına layiq görülmüşdür.

Onun «Telefonçu qız», «O qızı tapın», «Nəsimi», «Qızmar günəş altında», «Uzaq sahillərdə» (İ.Qasımovla birgə), bir sıra başqa yadda qalan filmləri həmişə sevilə-sevilə izlənir. H.Seyidbəylinin yaradıcılığı çox zəngindir.

Həsən Seyidbəyli 1980-ci il iyunun 25-də vəfat etmişdir.

+ + + + + + + +

Ədəbiyyat

1. Seyidbəyli Həsən. Cəbhədən-cəbhəyə: povest və roman /Red-ru C.Zeynal. - B.: Yazıçı, 1979.- 555 s.
2. Seyidbəyli Həsən. Gördüyüm yerlər: Yol qeydləri: Amerika, Yaponiya, Yoqoslaviya.- B.: Gənclik, 1980.- 208 s.
3. Seyidbəyli Həsən. Ömürdən əmanət: Xatirələr // Ədəbiyyat qəzeti.- 1994.- 22 iyul.- S. 3.

* * *

1. Əzimzadə Yusif. Ən səmimi arzularla...: /H.Seyidbəyli haqqında/ // Ədəbiyyat və incəsənət.- 1971.- 9 yanvar.- S. 7.
2. Əzimzadə Yusif. Qarşımda bir kitab var...: /H.Seyidbəylinin «Gördüyüm yerlər» kitabı haqqında/ // Ədəbiyyat və incəsənət.- 1980.- 26 dekabr.
3. Mükərrəmoğlu M. O, xoşbəxtlik qayğıları ilə yaşayırdı: /Həsən Seyidbəyli haqqında/ //Xalq qəzeti.- 2001.- 5 sentyabr.- S. 5.
4. Mütəllimov T. Səadətin ünvanı: (Həsən Seyidbəylinin «Xoşbəxtlik qayğıları» adlı filmi haqqında) // Kommunist.- 1977.- 16 noyabr.

YUSİF SƏMƏDOĞLU - 70

Vəkilov Yusif Səməd oğlu 1935-ci il dekabrın 25-də Bakı şəhərində anadan olmuşdur. Burada 44 №-li şəhər orta məktəbini bitirib, Moskvada SSRİ- Yazıçılar İttifaqı nəzdində olan M.Qorki adına Ədəbiyyat İnsitutuna daxil olmuşdur. (1953) Atasının vəfatından sonra həmin İnsitutun dördüncü kursunu bitirib, S.M. Kirov adına ADU-nun filologiya fakultəsinin beşinci kursuna dəyişilmişdir. (1957-1958) Vəkilov Yusif Səməd Vurğun oğlu - nasir, 1958-ci ildən Yazıçılır Birliyinin üzvü, Azərbaycanın Əməkdar İncəsənət xadimi (1980), Azərbaycan Respublikası Ali Sovetinin deputatı (1990), Əmək fəaliyyətinə «Kommunist» qəzeti redaksiyasında tərcüməçi - redaktor kimi başlamışdır.

Azərbaycan jurnalının baş redaktoru vəzifəsində işləyib. (1987) Onun «Yeddi oğul istərəm» ssenarisi əsasında film çəkilmişdir. «Qətl günü» romanına görə SSRİ Yazıçılar İttifaqının mükafatı verilmişdir. (1987) Medalla təltif edilmişdir. 1979-cu ildə Y.Səmədoğlu Azərbaycan İncəsənət xadimi adına layiq görülmüşdür.

Yusif Səmədoğlu 1998-ci ildə vəfat etmişdir.

+ + + + + + + +

Ədəbiyyat

1. Səmədoglu Y. 220 №-li otaq.- B.:Uşaqgəncnəşr, 1960.-79 s.
2. Səmədoglu Y. Qalaktika.- B.: Gənclik, 1973.- 56 s.
3. Səmədoglu Y. Qətl günü.- B.: Yazıçı, 1987.-183 s.
4. Səmədoglu Y. Ağsaqqal qayğısı: İsmayıl Şıxlı – 75.// Ədəbiyyat qəzeti.- 1994.- 18 mart.- S. 2.
5. Səmədoglu Y. Astana: (hekayə) // Azərbaycan.- 1978.- №11.- S. 119-129.
6. Səmədoglu Y. Bayatı-Şiraz: (hekayə) // Ulduz.- 1987.- №2.- S. 27-35.
7. Səmədoglu Y. Deyilənlər gəldi başa: Roman // Azərbaycan.- 1999.- №2.- S. 5-67.

8. Azərb. Resp. Prezidenti. Yazıçı Yusif Səmədoğluna: /Anadan olmasının 60 illiyi munasibətilə təbriki/ // Azərbaycan.- 1995.- 20 dekabr.
9. Oruc Məmməd. Məktub. O dünyaya, Yusif Səmədoğluna: /Yazıçı Yusif Səmədoğlu haqqında/ // Ədəbiyyat qəzeti.- 1999.- 12 fevral.

FİRİDUN KÖÇƏRLİ – 85

Filosof, fəlsəfə elmləri doktoru, Firidun Qasım oğlu Köçərli 1920-ci il dekabr ayının 28-də Gədəbəy rayonunun İsalı kəndində müəllim ailəsində anadan olmuşdur.

1926-1935-ci illər İsalı kənd yeddiillik məktəbinin şagirdi olmuşdur.

1936-1939-cu illərdə Gəncə Pedaqoji Texnikumunda oxumuş və Gədəbəy rayonunun İsalı kəndində yeddiillik məktəbdə müəllim işləmişdir.

F.Köçərli 1945-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakultəsi nəzdində açılmış fəlsəfə şöbəsinə daxil olur. O, universitetin tələbə elmi cəmiyyətinə rəhbərlik edir, birləşmiş yerli komitənin sədri və partiya komitəsinin üzvü seçilir.

1949-cu ildə F.Köçərli hələ tələbə ikən universitetin «Lenin yolu» qəzetində ilk elmi məqaləsini nəşr etdirir. ADU-nu fərqlənmə diplomu ilə bitirən F.Köçərli elə orada müəllim saxlandı.

O, 1945-ci ilin mart ayında «Azərbaycan xalqının sosialist mədəniyyətinin təşəkkülü» mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edir. 1954-cü ilin mart ayından 1958-ci ilə qədər Azərbaycan Dövlət Universitetinin fəlsəfə kafedrasında baş müəllim, dossent vəzifələrində işləyir, böyük hörmət və nüfüz qazanır.

O vaxtlar ADU-nun rektoru işləyən akademik Yusif Məmmədəliyev Firidun Köçərlinin elmi, pedaqoji, ictimai fəaliyyətini yüksək qiymətləndirirdi. Yusif Məmmədəliyev 1958-ci ildə Azərbaycan EA prezidenti seçilərkən F.Köçərliyə akademiyada işləməyi məsləhət görür. F.Köçərli həmin vaxtdan respublika Elmlər Akademiyasının fəlsəfə bölməsində əvvəlcə şöbə müdiri, sonra isə bölmənin rəhbəri vəzifəsində çalışır.

O vaxt Respublikada fəlsəfə elmi güclü elmi zərbələrə məruz qalmışdı. Azərbaycanda fəlsəfə elminin görkəmli rəhbəri Heydər Hüseynov 1950-ci ildə şəxsiyyətə pərəstiş dövrünün qurbanı olmuş, Azərbaycan EA Fəlsəfə İnstitutu bağlanmışdı. Belə bir şəraitdə respublika Elmlər Akademiyasında fəlsəfə elminə rəhbərlik etmək F.Köçərlinin üzərinə düşmüşdü.

1968-ci ildə Fəlsəfə İnstitutunu bərpa etmək mümkün oldu. İnstitutun yenidən təşkilində, əlbəttə, F.Köçərlinin əməyi böyük

olmuşdur. O, yenidən təşkil edilən Fəlsəfə İnstitutuna ilk direktor təyin edildi.

F.Köçərlinin elmi fəaliyyətində əsasən iki elmi istiqamət mühüm yer tutur. Bunlardan biri Azərbaycan xalqının fəlsəfə tarixinin tədqiqidir. Alim xalqımızın böyük oğlu Nəriman Nərimanovun nəzəri, publisist irsini araşdıraraq onun dünyagörüşü haqqında ilk fundamental əsər yazmışdır.

F.Köçərli Ü.Hacıbəyovun, C.Məmmədquluzadənin publisist irsi əsasında ictimai-siyasi görüşlərini öyrənən ilk tədqiqatçıdır.

F.Köçərli 26 il müddətində Akademiyanın Fəlsəfə İnstitutuna başçılıq etmişdir. Elmi axtarışdan mənəvi zövq alan görkəmli alim keçmiş illərə nəzər salmalı olsa başını vüqarla uca tuta bilər, çünki o, mənalı bir ömür, həm də çoxları üçün nümunə ola biləcək bir ömür sürmüşdür.

+ + + + + + + +

Ədəbiyyat

1. Köçərli F. M.F.Axundovun dünyagörüşü.- B.: Elm, 1999.- 122 s.
2. Köçərli F. «Molla Nəsrəddin»çi Ömər Faiq.- B.: Elm, 1995.- 74 s.
3. Köçərli F. Nəriman Nərimanov: Həyatı, fəaliyyəti və dünyagörəşə.- B.: Azərb. SSR EA, 1963.- 339 s.
4. Köçərli F. Üzeyir Hacıbəyovun ictimai-siyasi görəşləri.- B.: Azərb. SSR EA, 1965.- 92 s.

* * *

1. Firudin Qasım oğlu Köçərli: Biblioqrafiya /Tərt. ed. Ç.Əhmədova.- B.: Elm, 1997.- 65 s.
2. Katibli M. Xalqımızın iftixarı: (F.Köçərlinin «Nəriman Nərimanov» əsəri haqqında) //Elm və həyat.- 1966.- № 4.- S. 16-17.
3. Yusifov N. Alim-fəal təbliğatçı: (Fəlsəfə elmləri doktoru, professor F.Köçərli haqqında) // Elm və həyat. -1969. -№ 11.- S. 16-17.

YUSİF MƏMMƏDƏLİYEV – 100

Məmmədəliyev Yusif Heydər oğlu 1905-ci il dekabrın 31-də Ordubadda anadan olub. 1926-cu ildə Azərbaycan Ali Pedoqoji İnstitutunutunu bitirib. Gəncədə və Yerevanda müəllim olmuş, iki il sonra Lomonosov adına MDU-da təhsilini davam etdirdikdən sonra Azərbaycan Kənd Təsərrüfatı İnstitutundada işləmişdir. 1954-58-ci illərdə ADU-nun rektoru olmuşdur. Yüksək ixtisaslı elmi kadrların hazırlanmasında böyük xidməti olmuşdur. O, SSRİ, ABŞ, İtaliya, Fransa, İngiltərə, PXR, MXR və başqa ölkələrdə çağırılan qurultay, konqres və simpoziumlarda respublikamızı dəfələrlə təmsil etmişdir.

Naxcıvan Pedeqoji İnstitutuna, Ordubad İpək Kobinatı və Bakı kücələrindən birinəYusif Məmmədəliyevin adı verilmişdir. Ordubadda ev muzeyi acılmış və büstü qoyulmuşdur. O, 1961-ci il dekabrın 15-də vəfat etmişdir.

Əsas elmi işləri: neftin və neft qazlarının katalitik emalı sahəsindədir.

Əsəri: Azərbaycanın təbii qazları və onlardan kimyəvi istifadə.

+ + + + + + + +

Ədəbiyyat

1. Məmmədəliyev Y. Azərbaycanda elmin inkişafı.- B.: Azərnəşr, 1960.- 124 s.
2. Məmmədəliyev Y. Etilbenzolun haloidalkenlərlə sulfat turşusunun iştrakı ilə alkilləşdirilməsi.// ADU-nun Elmi Əsərlər: Fizika-riyaziyyat və kimya elmləri seryası.- 1962.- №3.- S. 3-8.

* * *

1. Akademik Y. Məmmədəliyev: Fotokitab /Tərtib edən: S.Məmmədəliyeva. - B., 1996.- 143 s.
2. Məhərrəmov A., Qiyasbəyli M. Tarixin canlı salnaməsi: /Y.Məmmədəliyev haqqında/.- B., 2000.
3. Abdullayev M. Böyuk alim, gözəl insan: (Akademik Y.Məmmədəliyev haqqında)// Elm və həyat.- 1988.- №1.- S. 9-11.
4. İbrahimov Mirzə. Unudulmaz alim: (Y.Məmmədəliyev haqqında)// Azərbaycan.- 1985.- №3.- S. 151.
5. Rəxşanlı Rəsul. Kimya elmimizin iftixarı: (Akademik Y.M. anadan olmasının 80 illiyi)// Azərbaycan müəllimi.- 1985.- 27 dek.

MƏZAHİR RUSTƏMOV - 45

Rüstəmov Məzahir Rüstəm oğlu 1960-cı ildə Bakı şəhərində anadan olmuşdur. 1977-ci ildə Bakının Nizami rayonundakı 32 saylı orta məktəbini bitirmiş, 1978-ci ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsinə daxil olmuş, 1983-cü ildə Universiteti fərqlənmə diplomu ilə bitirmişdir.

1986-cı il AİMU-nun fəlsəfə kafedrasında laborant kimi əmək fəaliyyətinə başlayan Məzahir 1991-ci ildən Dövlət Mətbuat komitəsində kitab təbliği və xarici iqtisadi əlaqələr şöbəsində çalışmağa başlayır. 1992-ci ilin mart ayının 23-də M.Rüstəmov könüllü olaraq Gədəbəy rayonunun Şınıx bölgəsinə yollanır. O, həm də vzvoda rəhbərlik edir, hərbi müəllim və kəşfiyyatçılıq eləyir. Bacarığına görə onu rota komandirinə müavin təyin eləyirlər. 1992-ci il avqustun 6-da Erməni silahlıları Mutudərə istiqamətində hücuma keçir. Qeyri-bərabər döyüşdə Məzahir qumbara ilə özünü və 30-a qədər qulduru məhv edir. Şəhidlər xiyabanında dəfn olunur.

+ + + + + + + +

Ədəbiyyat

1. Axundov Musa. Əfsanəyə dönmüş ömür.- B., 1997.
2. Gədəbəyli D. İgid ölməz: /Milli qəhrəman M.Rüstəmovun xatirəsinə şer/ // Bakı.- 1993.- 3 aprel.
3. Quliyev S. Salam, ay Məzahir: /Milli qəhrəman M.Rüstəmov haqqında/ // Azərbaycan.- 1996.- 12iyun.
4. Milli Qəhrəmanların abidələri açılmışdır: /Nizami rayonundakı 32 saylı məktəbdə onun heykəli və 103 saylı məktəbdə Əfqan Hüseynovun büstünün açılışı haqqında / // Azərbaycan.- 1996.- 6 mart.
4. Səmədov B., Aslanov S. /Milli qəhrəman M.Rüstəmov haqqında/ // Vətən üçün lazım gəlsə... .- B., 1994.- S. 19-35.
5. Zeynalov R. /Milli qəhrəman M.Rüstəmov haqqında/ //Azərbaycanın milli qəhrəmanları.- B.: Gənclik, 1996.- S. 42.

FƏXRƏDDİN ŞAHBAZOV - 55

Şahbazov Fəxrəddin İbrahim oğlu 1950-ci ildə Bakı şəhərində doğulub. Yasamal Rayonundakı orta məktəbi bitirib, Neft texnikumuna daxil olub.

F.Şahbazov 1972-ci ildən AZ. Teleradio Şirkətində əmək fəaliyyətinə başlayıb.

Teleşirkətdə 20 il operator vəzifəsində çalışmışdır. Son illər ermənilərin torpağımızda bir-birinin ardınca törətdiyi qanlı cinayətlər Azərbaycanın digər qeyrətli oğulları kimi Fəxrəddini də narahat edirdi. F.Şahbazov ömrünün çiçəkləndiyi bir dövrdə 20 noyabr 1991-ci ildə Qarabağ səmasında erməni daşnakları tərəfindən vurulan vertolyotda həlak olmuşdur.

O, Şəhidlər xiyabanında dəfn olunub.

+ + + + + + + +

Ədəbiyyat

1. Mirzəbəyli Ç., Cabbarlı A. «Mi - 8», Qarakənd ölməzlik və qədim ərəblər: (Milli qəhrəman F.Şahbazov haqqında) // Xalq qəzeti.- 2000.- 22 yanvar.- S. 4.
2. Zeynalov R. (Milli qəhrəman F.Şahbazov haqqında) // Azərbaycanın milli qəhrəmanları.- B.: Gənclik, 1996.- S. 27.
3. Səmədov B. (Milli qəhrəman F.Şahbazov haqqında) // Vətən üçün lazım gəlsə... .- B., 1994.- S. 150-155.
4. Ağayev Ş., Məmmədəliyeva A. Yanan ürək: F.Şahbazova həsr olunmuşdur.- B., 2001.

ARİF HÜSEYNZADƏ – 35

Hüseyinzada Arif İsmayıl oğlu 1970-ci ildə Bakı şəhərində anadan olmuşdur. 21 il ömür yaşayan Arif Azərbaycan televiziyasında təzəcə işləməyə başlamışdı. Səs operatoru idi. Ən mürəkkəb şəraitdə belə, süjet müəllifinin, operatorun işarəsini dərhal başa düşürdü. Cəbhə qruplarının tərkibində dəfələrlə Qarabağın dağlıq hissəsində olmuşdur.

1991-ci ilin 20 noyabrında onun Qarabağa son ezamiyyəti oldu. Xain düşmən tərfindən vurulan vertolyotda həlak olanlardan biri də A.Hüseyinzadə idi.

Fəxri xiyabanda dəfn olunmuşdur. Adını əbədiləşdirmək məqsədilə Bakının Yasamal rayonundakı 20 saylı orta məktəbə Arif Hüseyinzadənin adı verilmişdir.

+ + + + + + + +

Ədəbiyyat

1. Kərimova Şəmsiyyə. Yuvamdan uçdum: (20 noyabr 1991-ci ildə hərbi vertolyotda qəzaya uğramış işıqçı Arif H. haqqında) //Azərb. gəncləri.- 1991.- 12 dek.
2. Zeynalov Rizvan. Azərbaycanın milli qəhrəmanı Arif Hüseynzadə h. haqqında// Zeynalov R. Azərbaycanın milli qəhrəmanı.- B.: Gənclik, 1996.- S. 105.

ÇİNGİZ MUSTAFAYEV – 45

Mustafayev Çingiz Fuad oğlu 1960-cı ildə Həştərxan vilayətinin Kapustinyar-1 qəsəbəsində anadan olub. Ailələri 1964-cü ildə Bakıya köçüb. Çingiz 1977-ci ildə Yasamal rayonundakı 167 saylı orta məktəbi bitirib. N.Nərimanov adına Azərbaycan Tibb Universitetini qurtardıqdan sonra təyinatla 3 il Dəvəçi rayonunda həkim işləyib. Sonralar Bakıda həkim kimi fəaliyyətini davam etdirib.

İxtisasca həkim olsa da Mustafayev Çingiz jurnalistlik sənətinə sonsuz həvəs göstərib. Bu meyl 1990-cı ildə yanvar hadisələrində daha aydın nəzərə çarpıb. O, Sovet ordusunun Bakıda törətdiyi qanlı cinayəti təfsilatı ilə kameraya köçürüb.

1991-ci ilin əvvəllərində Ç. Mustafayev öz arzusu və istəyi ilə Azərbaycan Teleradio şirkətində işə götürülüb. İlk vaxtlardan çəkdiyi orjinal süjetlərdə çoxsaylı tamaşaçıların diqqətini cəlb edib. Məşhur «215 KL» studiyasının yaranması bilavasitə onun adı ilə bağlıdır.

Tez-tez ölümlə qarşılaşıb. Çingizin əsrin faciəsi olan Xocalıdan çəkdiyi dəhşətli reportaj bütün dünyanı sarsıtdı. Bununla o, Azərbaycanın İnformasiya blokadasını ilk dəfə darmadağın edib, əsl həqiqəti butun yer kürəsinə çatdırdı.

Çingiz ağlına da gətirməzdi ki, 1992-ci il iyulun 13-də Bakıdan son dəfə ayrılır. İyulun 15-də istedadlı telejurnalist kimi tanınan Ç. Mustafayev Qarabağ torpağında – Naxçıvanik uğrunda gedən döyüşlərdə düşmən güllәsinin qurbanı oldu.

Respublika Prezidentinin 6 noyabr 1992-ci il tarixli fərmanı ilə ölümündən sonra «Azərbaycanın Milli qəhrəmanı» fəxri adı verilmişdir.

+ + + + + + + +

Ədəbiyyat

1. Hüseynova Aida. Çingizli Dünya...- B.: Azərnəşr, 1994.- 32 s.
2.Zeynalov R. /Ç.Mustafayev haqqında/ // Zeynalov R. Azərbaycanın Milli Qəhrəmanları.- B., 1996.- S. 20.
3. Kərimov Ramiz. Çingiz ömrü// Azərbaycan.-2000.-8 dek.- S. 6.
4. Qardaşlı Valid. Silahı telekamera edir: /Telejurnalisti Ç.Mustafayev haqqında/ // Bakı.- 1992.- 18 iyun.
5. Raziyə. Yaxınlıq: / Ç.Mustafayev haqqında/ // Ədəbiyyat qəzeti.- 1992.- 26 iyun.- S. 8.

ƏLİQULU QƏMKÜSAR - 125

Əliqulu Qəmküsar 1880-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. Əliqulu molla məktəbində ərəb və fars dillərini öyrənmişdir. Molla məktəbini tərk etdikdən sonra Naxçıvan mədəni həyatında mühüm rol aynamış «Məktəbi-tərbiyə» adı ilə məhşur olan bir məktəbə daxil olmuşdur. Əliqulu iki ilə yaxın «Məktəbi-tərbiyə»də oxumuş, rus dilini öyrənmiş və onun bir ədib, mühərrir və ictimai xadim kimi yetişməsində həlledici əhəmiyyəti olmuşdur.

1912-ci ilə kimi Culfada və bəzən də Naxçıvanda yaşayan Qəmküsar o dövrdə bir-birini təqib edən mürəkkəb ictimai hadisələri diqqətlə izləyir, siyasi həyatda və mətbuatda yaxından iştirak edirdi. Nə çar məmurlarinin, nə də mürtəselərin təqibləri Ə.Qəmküsarı ictimai fəaliyyətdən çəkindirə bilmirdi.

Cəlil Məmmədquluzadə «Molla Nəsrəddin»i yenidən nəşr etmək üçün özünə köməkçi olaraq Ə. Qəmküsarı Tiflisə dəvət edir. O, bu dəvəti məmnuniyyətlə qəbul edib, 1912-ci ilin sonunda Tiflisə köçür. Ə.Qəmküsarı mollanəsrəddinçilər sevmiş və ona yüksək qiymət vermişlər. 1916-cı ildə Ə.Qəmküsar Mirzə Cəlil ilə birlikdə Bakıya gəlib, «Ölülər» komediyasının ilk tamaşasında Şeyx Nəsrullah rolunu oynamışdır. Ə.Qəmküsar həm səhnədə, həm yaradıcılığında, həm də həyatda ruhanilərin qənimi idi.

1917-ci ildə Naxçıvanda «Ölülər» pyesində Qəmküsarla birlikdə oynamış, əməkdar incəsənət xadimi Rza Təhmasib də Qəmküsarın Şeyx Nəsrullah rolunda çıxışına yüksək qiymət verir. 1917-ci ildə təkrar Tiflisə dönüb, siyasi-ictimai həyatda xüsusi bir fəallıq göstərir. Qafqaza soxulan ingilis müstəmləkəçilərini və zəhmətkeş xalqın başqa düşmənlərini tənqid atəşinə tutur.

1919-cu il martın 14-də Qəmküsara xaincəsinə qətlə yetirildi. Əliqulu Qəmkusarın adı həmişə hörmətlə yad ediləcəkdir.

+ + + + + + + +

Ədəbiyyat

1. Əliqulu Qəmküsar. Seçilmiş əsərləri /Müqəddimə A.Zamanovundur.-B.: Azərnəşr,1958.- 168 s.

* * *

1 Ağayev İslam. Əliqulu Qəmküsar: (həyat və yaradıcılığı). - B.: Elm, 1976.- 176s.
2. Hüseynov Firidun. Qəmküsar Ə. // «Molla Nəsrəddin» və mollanəsrəddinçilər .- B.: Yazıçı, 1986.- S.226- 233.
3.Salamzadə Qəmər. Kiçik pəncərədən görünən dünya.- B., 1990.
4 Zamanov A. Əliqulu Qəmküsar haqqında //Əməl dostları.- B.: Yazıçı, 1979.- S. 118-130.
5. Ağayev İslam. Ə.Qəmküsar və Azərbaycan səhnəsi //Ədəbiyyat və incəsənət.- 1980.- 19 dek.- S. 7.
6. Əliqulu qızı Qəmər. Atam haqqında.: /Ə.Qəmküsar haqında xatirələri/ // Ədəbiyyat və incəsənət.- 1980.- 19 dek. S. 7.
7. Məmmədov A. Əliqulu Qəmküsarın naməlum «Əmud»ları. //Ədəbiyyat və incəsənət.- 1984.- 6 iyul.- S. 8.
8. Salmanova Z. Ə.Qəmküsar «Molla Nəsrəddin» jurnalının silahdaşı kimi //Azərbaycan dili və ədəbiyyat tədrisi. - 1984.- № 1.- S. 42-45

HÜSEYN BOZALQANLI – 145

Quliyev Hüseyn Cəfərqulu oğlu 1860-cı ildə Tovuz rayonunun Bozalqanlı kəndində anadan olmuşdur. Kiçik yaşlarından aşıqlığa saz çalmağa həvəsi olmuşdur. 1890-cı ildən el arasında çalıb oxumağa başlamışdı. Aşıq bir çox gözəlləmələr, qoşmalar, təcnislər, təxmislər yaratmışdır. Onun şerləri dövri mətbuatda müntəzəm çap edilmişdir.

Şair Azərbaycan Yazıçılar İttifaqının üzvü olmuşdur. Azərbaycan SSR əməkdar İncəsənət xadimi adına layiq görülmüşdür.

Şair 1941-ci ilin noyabrın 13-də Bozalqanlı kəndində vəfat etmişdir.

+ + + + + + + +

Ədəbiyyat

1. Bozalqanlı H: Aşıqlar.- B.: Azərnəşr. 1935.- 340 s.
2. Bozalqanlı H: Qoşmalar.- B.: Azərnəşr. 1938.- 90 s.
3. Bozalqanlı H: Şerlər.- B.: Gənclik. 1973.- 116 s.
4. Bozalqanlı H: Bilər /Şer/: Bayatılar // Ədəbiyyat və incəsənət. 1978.- 4 fevr.- S.8.
5. Bozalqanlı H: Bu gün: /şer/ //Ədəbiyyat qəzeti.- 1930.- 3 iyul.
6. Bozalqanlı H: On bir qardaş: /şer/ // Ədəbiyyat qəzeti.- 1938.- 5 dekabr.
7. Bozalqanlı H. Seçmələr :/şer/ // Sovet kəndi.- 1985.- 5 dek.

* * *

1. Cahanbaxış C. Səl və sərraf haqqında: /H.Bozalqanlının həyat və yaradıcılığı haqqında/ //Ədəbiyyat qəzeti.- 1939.- 3 iyul
2. Musayev Bünuad. Aşiqin məhəbbəti: /Aşıq H.Bozalqanlı haqqında/ // Sovet kəndi.- 1972.- ? dek.
3. Rza Şəmşad. Dost salamı: Hüseyn Bozalqanlıya :/şer/ // Ulduz.- 1974.- № 3.- S. 52-53.

MÜNDƏRİCAT

SƏMƏNDƏR RZAYEV - 62.....5
LEYLA BƏDİRBƏYLİ - 85.....7
ALEKSANDR SERGEYEVİÇ QRİBOYEDOV - 210.....8
HƏZİ ASLANOV - 95.....9
TOFİQ BƏHRAMOV - 80.....11
ƏLÖVSƏT ABDULLAYEV- 85.....12
POLAD BÜLBÜLOĞLU - 60.....13
ƏZİZ MİRƏHMƏDOV - 85.....15
MİKELANCELO - 530.....16
BƏŞİR SƏFƏROĞLU - 80.....18
VAQİF MUSTAFAZADƏ - 65.....19
MİKAYIL RZAQULUZADƏ - 100.....18
MƏHƏMMƏD HÜSEYN ŞƏHRİYAR - 100.....20
SÜLEYMAN RƏHİMOV - 105.....22
ƏZİZ ŞƏRİFOV - 110.....24
NƏRİMAN NƏRİMANOV - 135.....25
ƏLİAĞA ŞIXLİNSKİ - 140.....27
MİKAYIL RƏFİLİ - 100.....28
ƏKRƏM CƏFƏR - 100.....29
RƏSUL RZA - 95.....30
MAQSUD İBRAHİMBƏYOV - 70.....32
ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV - 135.....33
MİXAİL ALEKSANDROVİÇ ŞOLOXOV - 100.....35
HƏSƏN ELSEVƏR - 80.....37
MÖHSÜN SƏNANİ - 105.....38
ZİYAD SƏMƏDZADƏ - 65.....40
ƏKİNÇİ - 130.....42
MƏMMƏDRZA ŞEYXZAMANOV - 90.....44
GİDE MOPASSAN - 155.....46
MUSTAFA TOPÇUBAŞOV - 110.....47
TOĞRUL NƏRİMANBƏYOV - 75.....48
CƏMŞİD NAXÇIVANSKİ - 110.....50
BƏXTİYAR VAHABZADƏ - 80.....51
ŞIXƏLİ QURBANOV - 80.....53
BƏKİR NƏBİYEV - 75.....54

FİKRƏT QOCA – 70 56
SƏYAVUŞ ASLAN – 70 57
HƏBİBULLA ŞAXTAXTİNSKİ – 105 59
ÜZEYİR HACIBƏYOV – 120 61
MÜSLÜM MAQOMAYEV – 120 63
ƏLİAĞA VAHİD – 110 64
SEYİD ƏZİM ŞİRVANİ – 170 65
HUSEUN SEYİDZADƏ – 95 66
SÜLEYMAN SANİ AXUNDOV – 130 68
VAHİD ƏZİZ – 60 70
FƏTƏLİXAN XOYSKİ – 130 72
RƏŞİD BEHBUDOV – 90 74
OSMAN SARIVƏLLİ – 100 76
HƏSƏN SEYİDBƏYLİ – 80 78
YUSİF SƏMƏDOĞLU – 70 79
FİRİDUN KÖÇƏRLİ – 85 81
YUSİF MƏMMƏDƏLİYEV – 100 83
MƏZAHİR RUSTƏMOV – 45 84
FƏXRƏDDİN ŞAHBAZOV – 55 85
ARİF HÜSEYNZADƏ – 35 86
ÇİNGİZ MUSTAFAYEV – 45 87
ƏLİQULU QƏMKÜSAR – 125 88
HÜSEYN BOZALQANLI – 145 90

2004
951

M.F.Axundov adına Azərbaycan Milli
Kitabxanasının mətbəəsində ofset üsulu ilə
çap olunmuşdur.

Ünvan: Xaqani küç. 29

877